**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV ADINA TARİX İNSTİTUTU**

**AZƏRBAYCAN TARİXİNƏ DAİR MƏNBƏLƏR**

# 1590-CI İL TARİXLİ “İRƏVAN VİLAYƏTİNİN MÜFƏSSƏL DƏFTƏRİ”

**BAKI - 2023**

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Şurasının
qərarı ilə çap olunur

TRANSLİTERASİYA VƏ TƏRCÜMƏ EDƏNLƏR: TARİX ÜZRƏ FƏLSƏFƏ DOKTORU, DOSENT

**HÜSAMƏDDİN QARAMANLI VƏ MEHMET ALAUDDİN İSLAMOĞLU**

ARAŞDIRMA MƏTNLƏRİ, ÖN SOZ, QEYD, ŞƏRH VƏ GÖSTƏRİCİLƏR
TARİX ÜZRƏ FƏLSƏFƏ DOKTORU, DOSENT

**HÜSAMƏDDİN QARAMANLININDIR**

Elmi redaktor: **Tofiq Nəcəfli**
tarix elmləri doktoru, dosent

Rəyçilər: **Fərəh Hüseyn**
tarix üzrə fəlsəfə doktoru, dosent,
**Əhməd Quliyev**
tarix üzrə fəlsəfə doktoru, dosent

1590-cı il tarixli "İrəvan vilayətinin müfəssəl dəftəri"// Osmanlı türkcəsindən tərcümə, Bakı, "Nəşriyyat" şöbəsi, 2023, – 576 s.

Azərbaycanın İrəvan bölgəsinə aid mühüm Osmanlı qaynaqlarından olan "Müfəssəl dəftər"in (1590) tarix elmi üçün ən böyük dəyəri odur ki, "Ermənistan respublikası" adlanan və mənşəyi 1918-ci ildən başlanan dövlətin yerləşdiyi ərazinin tarixi Azərbaycan torpağı olduğunu – elmi həqiqəti sübut edən ilk mənbələrdəndir. "Müfəssəl dəftər" İrəvan bölgəsinin həmin dövrdəki inzibati-ərazi bölgüsü, sosial-iqtisadi vəziyyəti, tarixi coğrafiyası, toponimikası, həyat tərzi barədə qiymətli faktlarla zəngindir.

Kitabdan tarixçilər, regionun tarixini öyrənən tələbələr, həmçinin geniş oxucu auditoriyası faydalana bilərlər.

**ISBN - 978-9952-8493-6-3**

© AMEA A. A. Bakıxanov adına Tarix İnstitutu, 2023

# MÜNDƏRİCAT

**ÖN SÖZ** ....................................................................................................6

**1590-CI İL TARİXLİ "İRƏVAN VİLAYƏTİNİN MÜFƏSSƏL DƏFTƏRİ"NİN ÖYRƏNİLMƏSİ** ..................................................................9

**1590-CI İL TARİXLİ**
**"İRƏVAN VİLAYƏTİNİN MÜFƏSSƏL DƏFTƏRİ"**
***(OÇERKLƏR)***

Müfəssəl dəftərin təsviri ........................................................ 15
İrəvan vilayətinin ərazi-inzibati bölgüsü ................................ 16
İrəvan vilayətinin şəhərləri .................................................... 20
İrəvan vilayətinin şəriət məhkəməsi ........................................ 22
İrəvan vilayətinin kənd təsərrüfatı ........................................... 25
İrəvan vilayətinin vəqfləri........................................................ 30
İrəvan vilayətinin əhalisi və etno-konfessional tərkibi ............. 31
İrəvan vilayətinin toponimləri və xristianlarında türk mənşəli şəxs adları .............................................................................. 38
Müfəssəl dəftərin nəşri ilə bağlı qeydlər.................................... 40

**"İRƏVAN VİLAYƏTİNİN MÜFƏSSƏL DƏFTƏRİ"**
***(TƏRCÜMƏ, QEYDLƏR, ŞƏRHLƏR)***

[**QANUNNAMƏ**] ....................................................................42
**İRƏVAN LİVASI** ...................................................................57
**İRƏVAN QƏZASI** ..................................................................58
**İrəvan nahiyəsi** .......................................................................58
Karpi nahiyəsi ..........................................................................61
Karni nahiyəsi ..........................................................................63
Karni nahiyəsi ..........................................................................65
Vadi nahiyəsi ............................................................................67
Aralıq nahiyəsi..........................................................................68
Talin nahiyəsi ...........................................................................69
Ərməvi nahiyəsi .......................................................................69
Abnik nahiyəsi .........................................................................69
Abaran nahiyəsi ........................................................................71
Şərabxana nahiyəsi ...................................................................72
**İRƏVAN QƏZASI**..................................................................73

İrəvanın özü ........ 73
Karpi nahiyəsi ........ 125
Naxçıvan nahiyəsi ........ 169
Məvaziyi-Xatun nahiyəsi ........ 170
Mülki - Arslanlı nahiyəsi ........ 170
Qarabağ nahiyəsi ........ 171
Dərəşam nahiyəsi........ 171
Dərəşahbuz nahiyəsi........ 171
Bazarçayı nahiyəsi........ 172
**NAXÇIVAN QƏZASI** ........ 173
Naxçıvanın özü........ 173
Məvaziyi- Xatun nahiyəsi........ 245
Mülki-Arslanlı nahiyəsi........ 247
Qarabağ nahiyəsi ........ 249
Dərəşam nahiyəsi ........ 255
Dərəşahbuz nahiyəsi ........ 257
Bazarçayı nahiyəsi........ 270
Şərur nahiyəsi........ 271
**ŞƏRUR QƏZASI**........ 273
Ağcaqala nahiyəsi........ 307
**AĞCAQALA QƏZASI**........ 310
Karni nahiyəsi........ 324
Vadi nahiyəsi........ 345
İrəvan livasına tabe olan Abaran nahiyəsi ........ 372
İrəvan livasına tabe olan Şərabxana nahiyəsi........ 377
**TALİN QƏZASI** ........ 379
Ərməvi nahiyəsi........ 386
Abnik nahiyəsi........ 392
**ARALIQ QƏZASI**........ 396
**ORDUBAD QƏZASI**........ 402
**Ordubad şəhəri** ........ 402
**Ordubad bağları**........ 431
Azadciran nahiyəsi ........ 444
Şorlut nahiyəsi ........ 431
Ordubad livasının Dərənürgüt nahiyəsi ........ 499
Zar nahiyəsi ........ 502
Zebil nahiyəsi ........ 503
Zar nahiyəsi ........ 505

Zebil nahiyəsi ........................................................................ 507
Əlincə nahiyəsi ........................................................................ 511
Sisyan nahiyəsi ........................................................................ 512
Əlincə nahiyəsi ........................................................................ 513
Sisyan nahiyəsi ........................................................................ 542
**ORDUBAD QƏZASI** ................................................................ 556
Azadciran nahiyəsi .................................................................. 557
Şorlut nahiyəsi ........................................................................ 558
Dərənürgüt nahiyəsi ................................................................ 558

**ADLAR GÖSTƏRİCİSİ**

Camaat və oymaqlar ................................................................ 561
Zaviyyə, came və məscidlər ..................................................... 561
Üzümlük, bağ və əkin yerləri .................................................... 563
Məzrəələr ............................................................................... 567
Yaylaqlar ................................................................................ 572

# ÖN SÖZ

"İrəvan vilayətinin müfəssəl dəftəri" adlı mənbənin zəngin məlumatlarının və faktlarının əhatə etdiyi bölgə - İrəvan vilayəti - sadəcə, fiziki coğrafiya deyildir. Bu geniş bölgə siyasi mədəniyyətimizin zirvəsi olan dövlət qurma qabiliyyətinin və idarəetmə istedadının ən bariz nümunəsidir. Əsrlər boyu bu torpaqlarda yaratdığımız bir çox dövlətin, o cümlədən Səfəvilər dövlətinin, Əfşarlar dövlətinin və sonralar da İrəvan xanlığının tərkib hissəsi olmuş İrəvan diyarı, bugünkü erməni tarixçilərinin iddia etdiyi kimi nə "Ermənistan", nə də "Şərqi Ermənistan" olmuşdur. Çuxursəəd kimi tanınan bu diyar Göycə, Zəngəzur, Urut, Dərələyəz, Dərəçiçək, Ağcaqala və b. adlarla əcdadlarımızın kompakt yaşadıqları bölgələrdən ibarət olmuşdur.

Haylara aid olmayan "erməni" anlayışına Sasanilər dövründə bir *əyalət, ostan* olduğu üçün "stan" da əlavə edilərək, bu bölgəyə Sovet hakimiyyətinin qurulması nəticəsində, formal olaraq müstəqil respublika, əslində isə, yenə də *inzibati* anlayış olan "Hayastan" ("Ermənistan") adı verilmişdir.

Bizim dövlətqurma qabiliyyətimizin olmamasını isbat etməyə çalışan "Ermənistan"ın qaragüruhçu tarixçiləri elmi dəlillərə əsaslanan müzakirələrdən çəkinərək, təbliğat vasitələrindən və üsullarından geniş istifadə etməyə üstünlük verirlər. Bunlardan ən geniş yayılmış olanlarının – "biz (ermənilər – H.Q.) qədim millətik, sizin (azərbaycanlılar – H.Q.) birinci dövlətiniz isə, XX əsrdə qurulub" tezisi, digəri isə, "tarixi mənbələrdə azərbaycanlı adında millət qeydə alınmayıb, siz (azərbaycanlılar – H.Q.) "müsəlman", "tatar", "Zaqafqaziya tatarları" adı ilə tanınırsınız" və b. tezislər üzərində qurulan "araşdırmalar" Ermənistan akademik elminin həm başlıca xüsusiyyətini, həm də mahiyyətini ortaya qoymaqdadır.

Təbliğat işlərinə yarayan yuxarıda qeyd etdiyimiz tezislərə nəzər salarkən, arqumentin inandırıcılıq dərəcəsini yüksəldə bilmək üçün, erməni tarixçilər müqayisə edilən cəhətlərin fərqli

məxrəclər üzərində olmasına üstünlük verir, bununla da, müvəqqəti də olsa, həm dinləyici, həm də oxucu auditoriyasından dəstək almağa müvəffəq olurlar.

Həmin tezisləri nəzərdən keçirək. Erkən orta əsr dövrü tarixi mənbələrdə, o cümlədən qrabarda yazılmış olanlar bizim bu torpaqlara *türk* kimi gəlməyimizi, *türk* kimi buralarda dövlət qurmağımızı və yaşadığımızı qeyd edirlər. Əsrlərin ötməsinə baxmayaraq, *türk* öz *türklüyünü* heç vaxt itirməmişdir. Məhz buna görədir ki, istər tariximiz, istərsə də dilimiz türk tarixi və mədəniyyəti kontekstində öyrənilmiş və öyrənilməkdədir. Halbuki, qrabarda yazılmış tarixi mənbələri çıxmaq şərti ilə erkən orta əsrlər dövrünün tarixi mənbələrində erməniləri nəzərdə tutan "*hay*" etnik adına rast gəlinmir.

Bundan əlavə, qrabarda yazılmış mətnlər müasir erməni üçün anlaşılan deyil – onların başa düşülməsi üçün mütləq müasir erməni dilinə tərcümə olunmaları lazımdır. Lakin 1400 il əvvələ aid Dədə Qorqud dastanının tərcümə edilməyə ehtiyacı yoxdur: bu dastanı orta məktəb şagirdləri də çox asanlıqla oxuyub başa düşürlər.

Millət məsələsinə gəldikdə isə, erməni tarixçilərinin bildiyi, lakin qeyd etmək istəmədikləri odur ki, millətlər milli dövlətlərin qurulması dövrünün, XIX əsrin məhsuludur. Ermənilərin nə bu dövrdə, nə də yüz illər əvvəl bu torpaqlarda dövləti olmamışdır. Bu bölgə əcdadlarımızın bu torpaqlarda qurduqları dövlətlərin bir vilayəti, bəylərbəyiliyi, xanlığı olmuşdur - onların da ermənilərə heç bir aidiyyəti yoxdur.

Siyasi mədəniyyətimizin aynası olan dövlət quruculuğu işi tariximizin istənilən səhifəsinin yaraşığıdır. Bu sahədəki fəaliyyətimizin ən cəlbedici cəhəti şəhərsalma mədəniyyətidir. Yeni bir şəhər salarkən, əcdadlarımız şəhərin özəyini təşkil edən qalanın inşasından əvvəl həmin yerin salınacaq şəhər üçün nə dərəcədə uyğun olub-olmamasını nəzərdən keçirmişlər. Başqa sözlə, gələcək şəhərin coğrafi mövqeyi, xüsusilə də landşaftının hərbi istehkam yaratmağa münasib olması, torpaqlarının münbitliyi və ondan istifadə qaydaları, su ehtiyatlarının mövcudluğu, ticarət

yollarına yaxınlığı və nəhayət, demoqrafik göstəricilər əhəmiyyətli amillərdən olmuşdur. Məhz bu amillər nəzərdən keçirilərək, İrəvan şəhərinin özəyi olan İrəvan qalası salınmışdır.

400 ilə yaxın bir dövrdə Azərbaycan şəhəri olmuş İrəvanın tarixini qazıntı vaxtı tapılmış üç hərfə – RBN (ermənilərə görə Erebuni, Erevan) – bağlanmasından başqa heç bir dəlili olmayan erməni tarixçilərinin bildikləri, lakin yenə də toxunmadıqları məsələ odur ki, hər hansı bir şəhərin tarixini bəyan edərkən, hər şeydən əvvəl başlıca şərt kimi bütün dəlilləri ehtiva edən şəhərin *pasportunun* ortaya qoyulmasıdır: İrəvanın erməni şəhəri olmasını sübut edən heç bir dəlil yoxdur. Məhz bizim əcdadlarımız İrəvan qalasını inşa edərək, həm İrəvanın əsasını qoymuş, həm də onu şəhər səviyyəsinə qaldırmışlar.

“İrəvan vilayətinin müfəssəl dəftəri” zəngin mənbədir; yuxarıda qeyd edilən məsələlərə aydınlıq gətirmək baxımdan tarixşünaslığa böyük faydası olacağına ümid edərək, onu mütəxəssislərin, həmçinin geniş oxucu dünyasının ixtiyarına veririk.

* * *

1590-cı il tarixli “İrəvan vilayətinin müfəssəl dəftəri”nin müzakirəsinin təşkili və onun nəşri üçün böyük zəhmət sərf etmiş Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun baş direktoru, tarix elmləri doktoru, professor Kərim Şükürova, tarix elmləri doktoru, dosent Tofiq Nəcəfliyə, kitabın müzakirəsində iştirak edən və rəy verən hörmətli həmkarlarımıza səmim-qəlbdən təşəkkür edirik.

# 1590-CI İL TARİXLİ "İRƏVAN VİLAYƏTİNİN MÜFƏSSƏL DƏFTƏRİ"NİN ÖYRƏNİLMƏSİ

1578-ci ildə osmanlı ordusunun bir neçə istiqamətdən Səfəvi dövlətinin qərb vilayətlərinə hücum etməsilə siyasi, iqtisadi və ideoloji amillərə görə XVI əsrin sonlarında yenidən gündəmə gəlmiş Osmanlı – Səfəvi dövlətlərarası gərginliyi 1590-cı illərə qədər davam edən müharibə ilə nəticələnmişdir.

1590-cı il İstanbul müqaviləsinə əsasən Səfəvi dövləti məğlub tərəf kimi qərb vilayətlərinin, o cümlədən İrəvan vilayətinin Osmanlı hakimiyyəti altına keçməsini qəbul etmişdi.[1]

1583-cü ildə Rəvan qalasını, 1586-cı ildə Ordubad, Kapan və Zəngəzuru, iki ildən sonra isə, Naxçıvanı ələ keçirən osmanlılar bu torpaqlarda öz idarəetmə sistemini tətbiq etməyə başlamış, təmirə ehtiyacı olan qalaların təmir-bərpa işlərini görmək, oralarda hərbi qarnizonları yerləşdirmək, təhrir işlərini həyata keçirərək vilayətdən əldə ediləcək gəliri müəyyən etmək və bu gəliri dirlik və maaş şəklində bölüşdürmək, qəzalar təsis edib, şəriət məhkəməsinin fəaliyyətinə imkan yaratmaq, vilayətin idarə edilməsinin hüquqi bazasını – Qanunnaməni hazırlamaq kimi işləri qısa vaxtda həyata keçirmiş və 1590-cı ildə İrəvan vilayətinin Osmanlı dövrünün ən dəyərli mənbələrindən olan "İrəvan vilayətinin müfəssəl dəftəri" üzərində işi başa çatdırmışlar.

Qeyd olunan məsələlər haqqında narrativ mənbələrlə yanaşı, təqdim olunan "İrəvan vilayətinin müfəssəl dəftəri"ndə də maraqlı məlumatların olması, müasir Azərbaycan və Türkiyə tarixçilərinin nəzərindən qaçmamışdır.

XV-XVI əsrlər Osmanlı – Səfəvi münasibətlərini araşdırmış M.F.Kırzıoğlu bu dəftərin ilk tədqiqatçılarından olmuşdur. Həm narrativ mənbələrə, həm də İrəvan vilayətinə aid bu dəftərə müraciət edən M.F.Kırzıoğlu İrəvan vilayətinin ərazi-inzibati bölgüsünə aid məsələlərdə onlardan geniş istifadə etmişdir.

---

[1] İstanbul müqaviləsi haqqında bax: M.Fahrettin Kırzıoğlu, *Osmanlıların Kafkas ellerini fethi,1451-1590,* Ankara, 1976, s. 381.

M.F.Kırzıoğlunun toxunduğu maraqlı məsələlərdən biri də, İrəvan vilayətinin "Göycə" adlı sancağının olması, lakin onun İrəvanın keçmiş qazısı İsmayıla "ocaqlıq" kimi verilməsinə görə dəftərə salınmamasının müəyyən edilməsidir. Bununla belə M.F.Kırzıoğlu Culhanın Ordubad qəzasına tabe olan nahiyə kimi qeyd etməklə yanlışlığa yol vermişdir – dəftərə görə, Culha kəndi Ordubad qəzasının Azadciran nahiyəsinin bir kəndi idi.[2]

Bu sətirlərin müəllifi Türk Tarix Kurumunun koqreslərinin birində İrəvan vilayətinin dəftərlərinə həsr olunmuş məruzə ilə çıxış etdiyimizə görə, Z.M.Bünyadov ilə çapa hazırlanmış İrəvan əyalətinin icmal dəftərinin ön sözündə İrəvan vilayətinin müfəssəl dəftərinin təsviri verilməklə kifayətlənilmişdir.[3]

Azərbaycanda 1590-cı il tarixli "İrəvan vilayətinin müfəssəl dəftəri" ilə bağlı araşdırma və nəşrlərdən üçünü xüsusi qeyd etmək lazımdır. Azərbaycan tarixçilərindən Tofiq Nəcəfli həmin dəftərin faksimilesini ön sözlə nəşr etmiş, İrəvan vilayətinin ərazi-inzibati bölgüsünə, onun şəhərlərinin, həmçinin vilayətin bu dövrdə olan demoqrafik vəziyyətinə, Osmanlı–Səfəvi müharibəsi nəticəsində vilayətdə baş vermiş məcburi köçlərin siyasi-ideoloji səbəblərinə aydınlıq gətirmiş, müfəssəl dəftərin İrəvan vilayətinin sosial-iqtisadi məsələlərinin öyrənilməsində dəyərli mənbə olduğuna diqqəti cəlb etmişdir.[4]

Xoşqədəm Həsənova tədqiqatında İrəvan vilayətinin ələ keçirildiyi 1583-ci ildən başlayaraq vilayətin müfəssəl dəftərinin tərtibinin başa çatdırıldığı 1590-cı ilə qədər osmanlıların İrəvan vilayətinin öz idarəetmə sisteminə inteqrasiyasından bəhs etmiş, inteqrasiya məsələlərinin vilayət üçün hazırlanmış Qanunnamə-

---

[2] M.F.Kırzıoğlu, *Osmanlıların Kafkas ellerini fethi*, s. 374.

[3] Hüsamettin Mehmedov (Karamanlı), "Osmanlı dönemi Revan eyaleti tapu-tahrir defterleri", "*XII Türk Tarih Kongresi*", Ankara, 2000, s. 683-690; *İrəvan əyalətinin icmal dəftəri*, araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Ziya Büniyatov və Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı, *"Elm",* 1996.

[4] *İrəvan əyalətinin müfəssəl dəftəri,* tərtibçi Tofiq Nəcəfli, Bakı, "Çaşıoğlu" nəşriyyatı, 2009.

də nə şəkildə əks olunmasına, səfəvilər dövründən qalma və vilayətin insanlarının gündəlik həyatına və maddi vəziyyətinə mənfi təsir göstərən qaydaların ləğv edilməsinə, yerli əyanların və zümrələrin daşınmaz əmlakının qorunub-saxlanmasına və ya zeamət və timarlar verməsinə və s. məsələləri həm müfəssəl dəftərin, həm də 1595-ci il tarixli icmal dəftərinin materialları əsasında işıqlandırmışdır.[5]

Tədqiqatçı Musa Urudun Zəngəzur diyarına həsr etdiyi kitabı elmi-kütləvi nəşr olsa da, mühüm mənbələrə, xüsusilə də, İrəvan əyalətinin müfəssəl və icmal dəftərlərinin materiallarına söykənməsi baxımından diqqəti cəlb edir. Qeyd etdiyimiz dəftərləri müqayisə edən Musa Urud 1590-cı il tarixli müfəssəl dəftərdə qeydiyyata alınmamış kənd və məzrəələri həmin vilayətin 1595-ci il tarixli icmal dəftəri əsasında müəyyən etmiş, bu bölgədə torpaq sahiblərinin tam siyahısını hazırlamışdır.[6]

Azərbaycan tarixçilərindən Fərəh Hüseynin İrəvan şəhərinin tarixi ilə bağlı osmanlı mənbələrini araşdıraraq, bu şəhərin osmanlı mənbələrində bir Azərbaycan şəhəri olmasını və Osmanlı müəlliflərinin İrəvandan bəhs edərkən, nə "Ermənistan"-ın, nə də ki, ermənilərin adının çəkilmədiyini müəyyən etməsini xüsusi demək lazımdır. Bundan əlavə, Fərəh Hüseynin 1727-ci il tarixli İrəvan livasının müfəssəl dəftərini araşdırma ilə nəşr etməsini də böyük uğur hesab etmək olar; məhz onun bu nəşri sayəsində İrəvan şəhəri daxil olmaqla vilayət üzrə XVI əsrin sonlarında olduğu kimi, XVIII əsrin əvvəllərində də əhalinin etno-konfessional strukturunda türk-müsəlman əhalinin əksəriyyət təşkil etdiyi bir daha sübut olunmuş olunur. Əlavə edək ki, oxuculara təqdim olunan bu müfəssəl dəftərdəki yer adlarının

---

[5] Hoşkadem Hasanova, *Fetihten Osmanlı yönetim sistemine entegrasyonuna kadar Revan eyaleti (1583-1590)*, "Osmanlı", cilt 1, 1989, s. 509-515.

[6] Musa Urud, *Zəngəzur* (elmi-kütləvi nəşr), Bakı, "Nurlar" NPM, 2005, s. 148-165.

düzgün oxunuşunda Fərəh Hüseynin təklif etdiyi variantların çox böyük faydası olmuşdur.[7]

Türkiyə tarixçilərindən Selçuk Ilqaz və Mehmet Alauddin İslamoğlu "İrəvan vilayətinin müfəssəl dəftəri" əsasında dissertasiya yazmış və vilayətin Osmanlı dövrü sosial-iqtisadi, etnik-demoqrafik məsələlərini işıqlandırmışlar. M.A.İslamoğlunun tədqiqatının cəlbedici cəhəti bu vilayətin 1595-ci il tarixli icmal dəftərini, həmçinin çox sayda Mühimmə dəftərlərindəki sənədlərdən geniş istifadə etməklə, müqayisəli tədqiqat aparmış, xüsusilə də, XVI əsrin sonlarında İrəvan vilayətində osmanlı dövrü torpaq mülkiyyəti formaları məsələlərinə aydınlıq gətirmişdir.[8]

XVI əsrin sonları və XVIII əsrin əvvəllərində İrəvan vilayətinə aid müfəssəl və icmal dəftərlərinin məlumatlarını müqayisəli şəkildə araşdıran S.Ilqazın tədqiqatının üstün cəhətlərindən biri, bəlkə də birincisi, müfəssəl dəftərin statistik məlumatlarını sistemləşdirməsi və digər arxiv sənədlərini də tədqiqata cəlb etməklə onları ayrı-ayrı mövzulara görə araşdırmaqla, təhrir dəftərlərinin nə dərəcədə əhəmiyyətli olmasını nümayiş etdirməsidir. S.Ilqazın tədqiqatının digər bir maraqlı cəhəti, onun Başbakanlık Osmanlı arxivində *İrəvan ədalətnaməsini* aşkar etməsi və onun mətnini nəşr etməsidir (tədqiqatda zeamət və timarlarla bağlı müfəssəl dəftərin məhdud məlumatları ilə kifayətlənməkdənsə, 1595-ci il tarixli icmal dəftərindən də istifadə etsəydi, fikrimizcə, S.Ilqazın tədqiqatının dəyəri daha da artmış olardı. Bununla belə, S.Ilqazın tədqiqatında əhalinin etno-konfessional strukturu ilə bağlı çıxardığı nəticələr həm çox suallar ortaya qoyur, həm də müəllifin statistik məlumatlara sxematik

---

[7] *1727-ci il tarixli Rəvan livasının müfəssəl təhrir dəftəri,* transliterasiya, tərcümə, giriş, terminoloji lüğət və göstəricilər Fərəh Hüseynindir, Bakı, "İdeal-Print" MMC, 2021; Ferah Hüseyn, "XVI-XVIII yüzyıllarda İrevan şehrinin tarihinden (Osmanlı kaynaklarına binaen)", "*Yeni Türkiye*", sayı 78, 2015, s. 690-695.

[8] Mehmet Alauddin İslamoğlu, *İrəvan əyalətinin 1590-cı il tarixli müfəssəl dəftəri və 1595-ci il tarixli icmal dəftərinə əsasən Azərbaycan tarixi məsələləri*, tarix üzrə fəlsəfə doktoru dissertasiyası, Bakı, 2015.

münasibətinin olduğunu üzə çıxarır. Tədqiqatda bəzi terminlərin oxunuşunda və izahında (misal üçün, *mevkuf* anlayışının müfəssəl dəftərdəki mənasından fərqli olaraq vəqflərlə əlaqələndirməsi, bəzi dənli bitkilərin adının – "qavres"i "kavri" kimi oxuması və s.) xətaların olduğu nəzərə çarpsa da, bunlar S. Ilqazın dəyərli işinin Azərbaycan tarixinin öyrənilməsindəki əhəmiyyətini aşağı salmır.[9]

Türk tarixçilərindən A.S.Bilgili, H.Babacan və H.Karagöz "İrəvan vilayətinin müfəssəl dəftəri"nə müraciət edərək, həmin dəftərin məlumatlarından sosial-iqtisadi məsələlərin işıqlandırılmasında istifadə etmişlər. A.S.Bilgili osmanlı dövründə Səfəvi vilayətlərində təsis edilmiş vəqflər məsələsinə aydınlıq gətirmiş, vəqflərin kimlər tərəfindən təsis olunmasını, onların gəlir mənbələrini müəyyən etmiş, müfəssəl dəftərə qeyd edilmiş vəqflərin mətnlərinin transkripsiyasını da kitabına əlavə etmişdir.[10] H.Babacan, həmin dəftərin İrəvan qəzası ilə bağlı məlumatlarını əsas götürərək bu qəzanın sosial-iqtisadi vəziyyətini, məşğuliyyətini və əhalinin etnik strukturu məsələsini araşdırmışdır. H.Babacanın məqaləsi "İrəvan vilayətinin müfəssəl dəftəri"nin faktiki materialına əsaslanmasına baxmayaraq, müəllifin faktlara çox səthi yanaşması, müqayisəli analizə əhəmiyyət verməməsi, statik olan məlumatları olduğu kimi qəbul etdiyi üçün İrəvan qalası və şəhərinin etnik tərkibi ilə bağlı yanlış nəticələrə varmışdır. Bununla belə, H.Babacan müfəssəl dəftərin məlumatlarını sistemə salmış, onları ayrı-ayrı sahələr üzrə cədvəllərdə cəmləmiş, əhalinin ödədiyi vergilərin mahiyyətini açıqlamışdır.[11]

---

[9] Selçuk Ilgaz, *Osmanlı hakimiyetinde Revan (Çukursaad), (XVI-XVIII yüzyıllar arasında)*, doktora tezi, Erzurum, 2010.

[10] Ali Sinan Bilgili, *İran, Azerbaycan, Ermenistan ve Gürcüstanda osmanlı vakıfları (XVI-XVIII yüzyıllar),* Ankara, 2011.

[11] Hasan Babacan, "1590 tarihinde Revanın sosyal ve ekonomik yapısı", *"Yeni Türkiye*", sayı 78, 2015, s. 662-680; eyni müəllif İrəvan vilayətinin müfəssəl dəftərinin Qanunnaməsinin latin əlifbası ilə transkripsiyasını çap etdirmiş, məqaləsinə qısa giriş yazmış, lakin şərh etməmişdir; bax: Hasan Babacan, "Osmanlı kanunnamelerine bir örnek 1590 tarihli Revan vilayeti

H.Karagözün tədqiqatı isə İrəvan vilayətinin müfəssəl dəftərini tam deyil, yalnız Naxçıvan qəzası ilə bağlı məlumatlar əsasında qəzanın Osmanlı dövrü sosial-iqtisadi məsələlərini işıqlandırmışdır. Onun apardığı tədqiqatın maraqlı yönü, mənbələrin regionşünaslıq üçün nə dərəcədə faydalı olduğunu nümayiş etdirməsidir.[12]

---

kanunnamesi", *SDÜ Fen-Edebiyat Fakültesi Sosyal Bilimler Dergisi*, 1999, sayı 4, ss. 145-163.

[12] H.Karagöz, *1590 tahririne göre Nahçıvan kazası*, İsparta, 2001.

# 1590-CI İL TARİXLİ "İRƏVAN VİLAYƏTİNİN[13] MÜFƏSSƏL DƏFTƏRİ " (OÇERKLƏR)[14]

**MÜFƏSSƏL DƏFTƏRİN TƏSVİRİ**

İstanbulda, Başbakanlık Osmanlı Arxivində (TD, N: 633) saxlanılan "İrəvan vilayətinin müfəssəl dəftəri"nin tərtibi ilə bağlı iş noyabr 1590-cı ildə (h. 999-cu ilin məhərrəm ayı) başa çatdırılmışdır. Dəftər tuğrasızdır. Ölçüsü: 52.5x20 sm. 394 nömrəli səhifələrdən ibarət müfəssəl dəftərin bəzi səhifələri (1, 13, 15, 22, 23, 95, 98, 99, 131, 134, 137, 138, 144-147, 157-161, 163, 178, 179, 181, 197-199, 213, 228-231, 239, 242, 243, 253, 259-263, 272-275, 319, 322, 232, 325, 329, 334-337, 339, 358, 359, 366, 367, 387, 394) boşdur. Dua ilə başlayan müfəssəl dəftərin İrəvan vilayətinin sosial-iqtisadi həyatının bir çox yönlərini tənzimləyən Qanunnaməsi (s.2-12) vardır.

Qanunnamə *nəsx*, rəqəmlər *ərqami-divaniyyə,* dəftərin mətni isə *siyəqət* xətti ilə yazılmışdır.

Müfəssəl dəftərdə nahiyələr üzrə oralara tabe olan kəndlərin siyahısı və onlardan əldə edilən gəliri bildirən *göstərici*[15] də vardır, lakin bu göstəricilər müfəssəl dəftərin bir neçə yerində və ardıcıl yazılmadığına görə, həmçinin yaylaq, məzrəə, dizə, məhəllə və qışlaqların hamısının göstəricidə qeyd olunmaması da

---

[13] Həmkarlarımızın hamısının İrəvan adlı ərazi-inzibati vahidini *əyalət* kimi qeyd etmələrinə baxmayaraq, biz müfəssəl dəftərin *Qanunnaməsinin* bir neçə yerində onun *vilayət* adlandırılmasını nəzərə alaraq, İrəvanın *vilayət* kimi qeyd olunmasına üstünlük verdik.

[14] Müfəssəl dəftərin məlumatları həmkarlarımız tərəfindən dərindən araşdırıldığı və buna görə də, təkrarlara yol verməmək üçün, oçerklər xarakterini daşıyan bu qısa *Giriş* məqaləsində müfəssəl dəftərdə olan, lakin həmkarlarımın nəzərindən qaçmış olan məqamların işıqlandırılmasına üstünlük verdik.

[15] Müfəssəl dəftərin özündə yer adları göstəricisinin olmasına görə, mətni ağırlaşdırmamaq naminə, dəftərin mətnindən sonra yer adları göstəricisini deyil, camaat və oymaqların, zaviyyə, came və məscidlərin, üzümlük, bağ və əkin yerlərinin, məzrəələrin və yaylaqların adlarının göstəricisini əlavə etdik.

çaşqınlıq yaradır.[16] Vilayətin ayrı-ayrı inzibati bölgüləri dəftərin bir hissəsində gah qəza, gah liva, gah nahiyə kimi qeyd edilməsi dəftərin tərtibçilərinin sistemsiz iş gördüklərini bildirir. Ara-sıra ərqami-divaniyyə ilə bağlı əldə edilən gəlir hissəsində səhv yazılması, ümumi gəlirin yekun rəqəmində yanlışlıqlar da vardır. Yer adlarının yazılışına gəldikdə isə, onların iki şəkildə, bunlardan birində *bənzətmə* şəklində yazılması halları da müşahidə edilir ki, bu halda digər təhrir dəftərlərinə müraciət etməli olduq. Dəftərdə xeyli sayda *dərkənarlar* var, bunlar da ki, vəqflər və ya əkin yerlərinin sahibliyi və vergi ödəmə qaydaları ilə edilmiş dərkənarlardır.

**İRƏVAN VİLAYƏTİNİN ƏRAZİ-İNZİBATİ BÖLGÜSÜ**

1583-cü ildə İrəvan, 1586-cı ildə Ordubad və nəhayət, 1588-ci ildə Naxçıvan kimi əsas qalaları müqavimətsiz ələ keçirməklə osmanlılar səfəvilər dövründə Çuxursəəd bəylərbəyiliyinin əhatə olunduğu ərazidə İrəvan vilayəti yaratmışlar. 7 qəzadan və 26 nahiyədən ibarət İrəvan vilayətinə *İrəvan qəzası* (İrəvan, Karpi, Karni, Vadi/Vedi, Abaran/Aparan, Şərabxana nahiyələri ilə), *Talin qəzası* (Talin, Ərməvi və Abnik[17] nahiyələri ilə), nahiyələri olduğu qeyd edilməyən *Aralıq qəzası* (eyni adlı nahiyəsi ilə) və *Ağcaqala qəzası* (eyni adlı nahiyəsi ilə), *Naxçıvan qəzası* (Naxçıvan, Məvaziyi-Xatun, Mülki-Arslanlı, Qarabağ, Dərəşam, Dərəşahbuz və Bazarçayı nahiyələri ilə), *Şərur qəzası* (Şərur, Zar, Zebil, Əlincə və Sisyan nahiyələri ilə) və *Ordubad*[18] *qəzası*[19] (Azadciran, Şorlut, Dərənürgüt nahiyələri ilə)

---

[16] Müfəssəl dəftərin ayrı-ayrı hissələrinə yerləşdirilmiş göstəricilərə diqqət yetirmədiyinə görə, H.Babacan belə bir qənaətə gəlmişdir ki, göstəricilər vilayətin yalnız 10 nahiyəsi üçün tərtib edilmişdir; bax: H.Babacan, göst. məqalə, s. 663.

[17] Bu nahiyənin adını M.F.Kırzıoğlu *Eşnək* kimi oxumuşdur;bax: M.F.Kırzıoğlu, göst kitab, s. 347.

[18] Müfəssəl dəftərin *Göstəricisində* Ordubad ayrıca nahiyə kimi qeyd edilsə də, Ordubad şəhəri ilə bağlı məlumatdan sonra Azadciran nahiyəsinin kəndləri haqqında məlumat verilməyə başlanır. Fikrimizcə, Ordubadın nahiyə kimi *Göstəricidə* qeyd edilməsi katibin səhvi olmalıdır.

daxil edilmişdir. Bu qəzalardan ikisinin – *Aralıq* və *Ağcaqala* – qəza mərkəzi olmasıyla yanaşı, qəzaların ərazisini əhatə edən nahiyə statusu da olub.

Yuxarıda da qeyd etdiyimiz kimi, M.F.Kırzıoğlu İrəvan vilayətinin tərkibində Göycə adlı sancağın da olmasını, lakin onun İrəvanın keçmiş qazısı İsmayıla *ocaqlıq* kimi verildiyinə görə, müfəssəl dəftərə salınmadığını yazır. Müfəssəl dəftər həqiqətən də belə bir ərazi-inzibati vahidinin olmasını təsdiq edir, lakin Göycə mirlivası (sancaqbəyi) kimi İsmayıl deyil, Vedi nahiyəsinin Böyük Vedi kəndində *Toxmaq Sultanın üzümlüyünü* icarəyə götürmüş Fəzlullah bəyin olduğu qeyd edilmişdir.[20]

Müfəssəl dəftərin məlumatlarını nəzərdən keçirdikdə, İrəvan vilayətində 3 şəhərin (İrəvan, Naxçıvan və Ordubad), 735 kəndin, 121 məzrəənin, 7 dizənin, 3 məhəllənin, 11 qışlağın və 73 yaylağın adının qeyd edildiyi aydınlaşır. Adları müfəssəl dəftərə salınmış 735 kəndin çoxu (489 kənd – 66.5%) boşalmış kəndlərdir. Vilayət üzrə isə, 8 nahiyənin bütün kəndlərində kimsə yaşamamışdır: bunlar *Aralıq nahiyəsi* (31 kənd), *Abnik nahiyəsi* (37 kənd), *Abaran nahiyəsi* (49 kənd), *Şərabxana nahiyəsi* (15 kənd), *Mülki-Arslanlı nahiyəsi* (4 kənd), *Bazarçayı nahiyəsi* (10 kənd), *Zar nahiyəsi* (25 kənd) və *Zebil nahiyəsi* (24 kənd) idi.

100 % məskunlaşmış yalnız 3 nahiyə olub: *Naxçıvan* (31 kənd), *Dərənürgüt* (5 kənd), *Dərəşam* (3 kənd) nahiyələri. Yüksək məskunluk dərəcəsinə görə, yuxarıda adları qeyd edilən nahiyələrdən sonra *Azadciran* (məskunluk nisbəti 86.5%), *Şorlut* (məskunluk nisbəti 75%), *Şərur* (məskunluk nisbəti 71.4%),

---

[19] M.F.Kırzıoğlu Ordubad qəzasının tərkibində Culha adlı nahiyənin də olmasını qeyd edirsə də (bax: M.F.Kırzıoğlu, göst. kitab, s. 374), Müfəssəl dəftərin mətninə görə, *Culhan*ın kənd (*karye*) olduğu yazılmışdır.

[20] *İrəvan vilayətinin müfəssəl dəftəri*, N: 633, s. 216; M.F.Kırzıoğlunun *ocaqlıq* olduğunu bildirdiyi Göyçə sancağı hüquqi və inzibati baxımdan "*yurdluq-ocaqlıq*" deyil, "*hökümət*" sancağı olduğu üçün onun təhririnin aparılmadığını və məhz buna görə də İrəvan vilayəti üçün hazırlanmış müfəssəl dəftərdə Göyçə sancağı haqqında materialın daxil edilmədiyini söyləmək mümkündür.

*Qarabağ* (məskunluk nisbəti 66.7%) və *Karpi* (məskunluk nisbəti 59%) nahiyələrini qeyd etmək olar.

Digər 18 nahiyədə isə, məskunluk nisbəti aşağı olmuşdur: 13.1% – 44.9% arasında. (Bax: *Cədvəl*)

***Cədvəl*. İRƏVAN VİLAYƏTİNİN MƏSKUNLUK GÖSTƏRİCİSİ (%-lə)**

| Nahiyə | Şəhər | Məskun kəndlər | Boş kəndlər | Məzrəə | Dizə | Məhəllə | Qışlaq | Yaylaq |
|---|---|---|---|---|---|---|---|---|
| İrəvan | 1 | 21 | 62 | 14 | 0 | 0 | 4 | 17 |
| Karpi | 0 | 39 | 27 | 17 | 0 | 0 | 0 | 15 |
| Karni | 0 | 22 | 27 | 16 | 0 | 0 | 4 | 0 |
| Vadi | 0 | 12 | 43 | 10 | 0 | 0 | 2 | 1 |
| Aralıq | 0 | 0 | 31 | 5 | 0 | 0 | 0 | 0 |
| Talin | 0 | 4 | 13 | 7 | 0 | 0 | 0 | 0 |
| Ərməvi | 0 | 3 | 17 | 2 | 0 | 0 | 0 | 0 |
| Abnik | 0 | 0 | 37 | 5 | 0 | 0 | 0 | 3 |
| Abaran | 0 | 0 | 49 | 3 | 0 | 0 | 0 | 0 |
| Şərabxana | 0 | 0 | 15 | 0 | 0 | 0 | 0 | 0 |
| Ağcaqala | 0 | 8 | 53 | 7 | 0 | 0 | 0 | 1 |
| Naxçıvan | 1 | 31 | 0 | 9 | 5 | 0 | 0 | 0 |
| Məvaziyi-Xatun | 0 | 2 | 6 | 2 | 0 | 0 | 0 | 0 |
| Mülki-Arslanlı | 0 | 0 | 4 | 3 | 0 | 0 | 0 | 0 |
| Qarabağ | 0 | 4 | 2 | 1 | 1 | 0 | 0 | 0 |
| Dərəşam | 0 | 3 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| Dərəşahbuz | 0 | 7 | 20 | 3 | 0 | 0 | 0 | 6 |
| Bazarçayı | 0 | 0 | 10 | 0 | 0 | 0 | 0 | 0 |
| Şərur | 0 | 25 | 10 | 1 | 0 | 0 | 1 | 4 |
| Zar | 0 | 0 | 25 | 2 | 0 | 0 | 0 | 22 |
| Zebil | 0 | 0 | 24 | 0 | 0 | 0 | 0 | 4 |
| Əlincə | 0 | 14 | 20 | 8 | 0 | 0 | 0 | 0 |
| Sisyan | 0 | 8 | 24 | 3 | 0 | 0 | 0 | 0 |
| Azadciran | 1 | 32 | 5 | 3 | 1 | 3 | 0 | 0 |
| Şorlut | 0 | 6 | 2 | 0 | 0 | 0 | 0 | 0 |
| Dərənürgüt | 0 | 5 | 0 | 0 | 0 | 0 | 0 | 0 |

İrəvan vilayətinin üç şəhəri kimi qəbul etdiyimiz İrəvan, Naxçıvan və Ordubad müfəssəl dəftərdə *şəhər* sözü ilə deyil, çoxmənalı olan "*nefs*" sözü ilə qeydiyyata alınmışdır (misal

üçün, *nefs-i Revan* şəklində). Tərcümədə bu sözü "*özü*" mənasında işlətsək də, bu həmin sözün yalnız *nominativ leksik vahid* mənasını ehtiva edir.[21]

Bir termin kimi osmanlı sənədlərində "*nefs*" istifadə edilən kontekstə görə iki mənada işlənir. Şəhər, qəsəbə və kənd olmasından asılı olmayaraq, "*nefs*", həmişə olmasa da, eyni adlı qəza, sancaq (liva) və nahiyə mərkəzini ərazi-inzibati vahidindən fərqləndirə bilmək üçün istifadə edilir; nahiyə və onun mərkəzi eyni adı daşıdığı halda, onları fərqləndirmək üçün, nahiyənin mərkəzinə aid, misal üçün, "*nefs-i Revan*" yazılır ki, bu da həmin vilayətdə (qəzada) həmin adı daşıyan nahiyənin də- *nahiye-yi Revan* olmasına işarədir. "İrəvan vilayətinin müfəssəl dəftəri"nin materialları bu terminin ərazi-inzibati vahidinin mərkəzi üçün seçməli şəkildə istifadə olunduğunu göstərir ki, bunu da katiblərin diqqətsizliyi ilə izah etmək mümkündür. Müfəssəl dəftərdə bəzi hallarda "*şəhər*" sözü işlədilirsə də, bu ümumi mənada qalanın və qalaətrafı məhəllələrin nəzərdə tutulduğunu göstərir. *Qala* sözü isə, yalnız hərbi qarnizonun yerləşmə yeri olaraq işlədilmişdir.

"*Nefs*" termininin şəhər və qəsəbə mənasında işlədilməsinə gəldikdə isə, osmanistlərin fikirlərini ümumiləşdirərək qeyd edə bilərik ki, *qazının* olduğu (yəni *şəriət məhkəməsinin* fəaliyyət göstərdiyi) yer bir inzibati mərkəzdirsə və burada iqtisadi həyatın əsasını şəhər və qəsəbələrə xas olan xüsusiyyət təşkil edirsə, həmin yerin əhalisinin sayını da nəzərə almaqla, oranı bir *şəhər* və yaxud *qəsəbə* kimi xarakterizə etmək mümkündür. Məhz bu sonuncu tərifə əsaslanaraq, İrəvan vilayətinin üç: İrəvan, Naxçıvan və Ordubad adlı şəhərlərinin olduğunu qeyd edə bilərik.

[21] Müfəssəl dəftərdə İrəvan şəhəri nəzərdə tutularaq istifadə edilən "*nefs-i şehirde*" ifadəsindəki "*nefs*" də nominativ leksik vahid mənasında işlənmişdir.

**İRƏVAN VİLAYƏTİNİN ŞƏHƏRLƏRİ**

Bu haqda hazırlanma məqsədi çərçivəsində müfəssəl dəftərdə kifayət qədər material var. Osmanlı idarəetmə sisteminə inteqrasiya olunmaları üçün, İrəvan vilayətini ələ keçirmiş Fərhad paşanın əmri ilə İrəvanda ümumi uzunluğu 4 min arşın (təqribən 2.720 m) olan qala divarları təmir və bərpa edilmiş, bir came inşa olunmuşdur. Təmir-bərpa işləri Naxçıvan və Talin qalalarında da aparılmışdır. Bundan sonra İrəvan qalalarına mühafizəçilər, top silahları və maaş ilə yanaşı, cari işlər üçün 1.852.036 ağça vəsait ayrılmışdır.[22]

Müfəssəl dəftərin məlumatlarına görə, İrəvan, Naxçıvan və Ordubadın bu dövr müsəlman dövlətlərinin şəhərlərinə xas olan cəhətləri vardır. 5 məhəlləli İrəvan, 5 məhəlləli Ordubad və 13 məhəlləli Naxçıvanda ticarət və sənətkarlıq mərkəzləri fəaliyyət göstərmişdir; sakinlərinin kənd təsərrüfatı ilə də məşğul olduqları müşahidə edilir. Müfəssəl dəftərin tərtibçilərinin ayrı-ayrı məşğuliyyət sahələri üzrə ağça ilə ifadə etdikləri nominal gəlir göstəriciləri hər üç şəhərin daha çox bir ticarət və sənətkarlıq mərkəzi olduğunu söyləməyə imkan verir. Adları siyahıya salınmış şəhər sakinlərinin peşələrinin qeyd edilməsi, həmin insanların həm sənətkarlığın, həm də ticarətin bir çox sahələrində təmsil olunduqlarını göstərir. Xəzinənin ticarətdən və istehsal sexlərindən əldə etdiyi böyük gəlir də bu şəhərlərdə qeyd olunan sahələrin şəhər sakinlərinin üstünlük verdiyi məşğuliyyət sahələrinin göstəricisidir. Bunu İrəvan, Naxçıvan və Ordubad şəhərləri ilə bağlı statistik məlumatlar da sübut edir: İrəvan şəhəri üzrə əldə edilən ümumi gəlirin (400 min ağça) 71.4%-i, Naxçıvanda 320 min ağçalıq ümumi gəlirin 78.1%-i, Ordubad şəhərində isə, ümumi gəlirin (112.5 min ağça) 50.2%-i ticarət və sənətkarlıq ilə istehsal sexlərindən əldə edilirdi. [23]

---

[22] M.F.Kırzıoğlu, *Osmanlıların Kafkas ellerini fethi*, s. 346-347.

[23] Əlavə edək ki, xəzinənin İrəvan vilayətinin şəhərlərindən təmin etdiyi gəlirin (832.500 ağça) bütün vilayət üzrə əldə edilən gəlirdə (13.960.384 ağça) payı yüksək olmamış və təqribən 6%-ə bərabər idi.

Şəhərlərin topoqrafiyası, yerləşmənin strukturu haqqında məlumatın verilməsi müfəssəl dəftərin tərtibçilərinin məqsədinə daxil deyildi. Bununla belə, Fərhad paşanın əmri ilə bərpa-təmir işlərindən sonra İrəvan qalasının 8 qülləli *İçqala* və 43 qülləli *Dışqala*dan ibarət olduğu aydınlaşır.

Naxçıvan və Ordubad qalaları haqqında məlumat yoxdur, lakin bu şəhərlərdə də həmin məkan quruluşunun olması ehtimalı var.

Müfəssəl dəftərin maraqlı cəhətlərindən biri də odur ki, şəhər əhalisinin adı və atasının adı ilə yanaşı, həmin şəxsin hansı peşənin sahibi olması və yaxud hərbi birləşmələrdə və dini qurumlarda tutduğu vəzifəsinin adının qeyd edilməsidir. Bu isə, şəhərlərdəki hansı istehsalat sexinin, came ilə məscidlərin mövcudluğuna və orada çalışanların hansı vəzifəni tutduğuna aydınlıq gətirmiş olur.

Osmanlılardan əvvəl də müsəlman şəhəri olan İrəvanda məscidin varlığı şübhə doğurmasa da, şəhəri ələ keçirmiş Fərhad paşanın əmri ilə qalanın təmir-bərpa işləri ilə yanaşı, burada bir came də inşa edilmişdir. Came və məscidlərin çoxluğu baxımından Naxçıvan şəhəri digər şəhərlərdən seçilirdi; vilayət üzrə mövcud olmuş 18 came və məsciddən 14-ü Naxçıvan şəhərində idi. Müfəssəl dəftərin məlumatlarından Ordubad şəhərində yalnız bir camenin olduğu başa düşülür.

İrəvan vilayətinin şəhərlərinin üçünün də böyük ticarət mərkəzləri olması, həm satışa çıxarılan malların çeşidi, həm də ticarət dövriyyəsinin yüksəkliyi ticarət əməliyyatlarının tənzimlənməsini zəruri edirdi. İrəvan vilayəti üçün hazırlanmış *Qanunnamə* bu baxımdan öz təfərrüatı ilə seçilir: bu mühüm sənəddə topdan və pərakəndə satış ilə qiymətqoyma qaydalarına, tacirin mənfəətinin maksimum həddinə, vergi və rüsumların satılan malların qiymətinə uyğunluğuna, vəzifəli şəxslərin ticarət əməliyyatlarına müdaxilə etməsinin qarşısının alınmasının zəruriliyinə və s. xüsusi diqqət yetirilmişdir.

Şəhərlərlə bağlı nəzəri cəlb edən digər bir maraqlı məqam da odur ki, onların hər üçündə şəhər sakinlərinin üzümçülüyə

meylli olması idi. Sahə ölçü vahidi olan *qitə* (maksimum həddi: 0.5 ha) ilə müfəssəl dəftərdə qeyd edilən üzümlüklərin sahiblərinin arasında sadə insanların, hacı, seyid, şeyx, bəy titulları daşıyan insanların, din xadimlərinin, hərbçilərin və hətta vilayətin bəylərbəyisi olmuş Xızır paşanın da adını görürük. Bundan əlavə, üzümlük sahibləri nəinki özləri üzümlüklərinin qeydinə qalır, onu icarəyə də verir və ya öz övladlarına miras qoyurdular. Az da olsa, üzümlük sahibləri arasında qadınlar da olmuşdur.

Əgər Naxçıvan və Ordubad şəhərlərində üzümlük sahibləri həm əkinçilik, həm də üzümçülüklə məşğul idilərsə, İrəvan şəhərinin sakinlərinin əksəriyyəti əkinçiliyə deyil, məhz üzümçülüyə meylli olmuşdular. Mənfəətli olan bu məşğuliyyət sahəsinə maraq, xüsusilə də verginin çox aşağı olması və onun götürə üsul ilə müəyyən edilməsi, osmanlılardan da xeyli əvvələ getdiyini çox cəlbedici bir fakt da təsdiq edir: üzümlüyün kimə mənsub olması ilə yanaşı, üzümlüklərin bir çoxunun el arasında məşhur olan adı da dəftərdə qeyd edilmişdir. Misal üçün, bu günə qədər öz adını İrəvan şəhərinin mərkəzi hissəsinə vermiş *Dəlmə üzümlüyünü* qeyd edə bilərik. Bu üzümlüyün sahibi də bir çox üzümlüyün sahibi kimi tanınan İrəvanlı Saleh bəy idi. Ümumiyyətlə, İrəvan vilayəti üzrə el arasında xüsusi adı olan üzümlüklərin *hamısının* sahibi vilayətin türk-müsəlman əhalisi olmuşdur.[24]

**İRƏVAN VİLAYƏTİNİN ŞƏRİƏT MƏHKƏMƏSİ**

Şəhər həyatı ilə bağlı qeyd edilən məsələlərin və ümumiyyətlə, vilayətdə osmanlı ədalət anlayışına riayət edilməsinə məsul olan məqam İrəvan vilayətində fəaliyyət göstərən şəriət məhkəməsi idi. Mərkəzdən təyin edilən, vilayətdə heç bir vəzifəli şəxsə tabe olmayan qazılar İrəvan vilayətinin *İrəvan, Aralıq, Talin, Ağcaqala, Naxçıvan, Şərur və Ordubad qəzalarında* fəaliyyət göstərmişlər. Səfəvi dövlətinin vilayətləri ilə bağlı şəriət

[24] Xüsusi maraq doğuracağına görə, İrəvan vilayətinin üzümlüklərinin adlarının *Göstəricisini* də tərcüməyə əlavə etdik.

məhkəməsinin qərarlarını (*hüccət*) əks etdirən *sicil dəftərlərinin* arxivlərdə aşkar olunmamasına görə, şəriət məhkəməsinin fəaliyyətinə dair müşahidələrimiz yalnız müfəssəl dəftərin məlumatlarına əsaslanacaqdır.

Müfəssəl dəftərin üzümlük, əkin yeri sahibliyi və ya vəqflərlə bağlı məlumatları arasında yuxarıda qeyd etdiyimiz yeddi qəzanın yalnız dördünün qazılarının adlarını öyrənə bilirik: *İrəvan qazısı mövlanə Məhəmməd Şərif oğlu, Naxçıvan qazıları mövlanə Cənnəti və mövlanə Hüseyn, Ordubad qazısı mövlanə Bali əfəndi, Şərur qazısı mövlanə Davud.*[25]

Şəriət məhkəmələrinin fəaliyyəti bir neçə istiqamətdə və bir neçə sahəni əhatə edirdi ki, buraya mülki işlər, cinayət işləri, inzibati işlər, qayda-qanunların icrasına nəzarət məsələləri daxil idi.

Müfəssəl dəftərə görə, mülki işlər, əsasən, sahiblik və miras məsələləri ilə bağlı olmuşdur. Sahiblik məsələsi ilə bağlı qərarın (*hüccət*) verilməsindən əvvəl, qazının nəzarəti altında dövlətin gəlir mənbəyi (*müqatiə*) hesab olunan obyektlərin *iltizama* verilməsi üçün bu işlərin icrasına məsul mültəzimlər – auksionlar təşkil edirdilər. Auksiona çıxarılmış obyektə daha yüksək pul təklif edən şəxsin sahiblik hüququnun təsdiqi üçün

---

[25] Osmanlı qaydalarına görə, qazılar Müfəssəl dəftərdə "*mövlanə*" sözü ilə qeyd edildikləri və haranın *qazısı* olduğu bildirildiyi üçün, beş qazı haqqında məlumatımızın olduğunu söyləyə bilərik. Müfəssəl dəftərdə *mövlanə qazı Əli* adlı iki üzümlüyün sahibi haqqında məlumat verilirsə də (*İrəvan vilayətinin müfəssəl dəftəri*, N: 633, s. 122), onun hansı qəzanın qazısı olduğu bildirilmir. Bununla yanaşı, adları dəftərə salınmış bir çox şəxsin adında *qazı* sözünün olmasını, onların *qazı* vəzifəsi tutduğuna kifayət edən dəlil kimi qəbul etmədik. Lakin səfəvilər dövründə onların *qazı* olmasını ehtimal edərək, faktı inkar etmirik və gələcəkdə aşkar olunacaq yeni sənədlər əsasında aparılacaq tədqiqatlar üçün əlavə material kimi şəxs adının tərkibindəki *qazı* sözünü *kursivlə* yazmağı məqsədəuyğun bildik. *Hacı, şeyx, seyid, bəy* sözlərinin həmin şəxsin ata - baba adına yaraşdırma kimi, yoxsa həqiqətən də, hansı bir zümrəyə mənsubiyyətinin bildirilməsi üçün istifadə edildiyinin müəyyənləşdirilməsi də çətinlik yaradan məsələlərdən olduğunu xüsusi vurğulamaq istərdim. Bu baxımdan qeyd edilən titullarla adın ikinci hissəsinin ayrı və ya bitişik yazılması ilə bağlı sualı da dilçi alimlərimizin öhdəsinə buraxdıq.).

adı şəriət məhkəməsinə bildirilirdi. Şəriət məhkəməsi isə, həmin şəxsin sahiblik hüququnu təsdiq edir və müvafiq qərar (*hüccət*) verirdi. Müfəssəl dəftərdə bu qərara isnad edilməsi mühüm şərt idi. Müfəssəl dəftərdə bu qayda ilə üzümlük, bağ, çayırlıq, əkin yerləri və s. sahibliyi və ödəniləcək verginin və rüsumun miqdarı qeyd edilirdi.

Mülki işlərə aid digər sahə isə miras hüququ ilə əlaqədar idi. Müfəssəl dəftərdə ümumi adı *beytülmal* [26] olan bu anlayış iki qismə bölünmüşdür. Mirasın dövlət qiyməti (*narh*) ilə müəyyən edilmiş dəyəri 10 min ağçadan aşağı olardısa, bu hallarda dəftərdə "*beytülmali-ammə*" və ya "*beytülmali-əvvam*" yazılırdı ki, bu bir qayda olaraq, maddi imkan baxımından aşağı təbəqə mənsublarını nəzərdə tuturdu. Mirasın dəyəri 10 min ağçadan yuxarı olduğu təqdirdə, dəftərdə "*beytülmali-xassə*", yəni zəngin təbəqəyə mənsub mənası vurğulanırdı. Miras hüququ ilə bağlı digər məsələ də mirasın kimə çatacağının bilinməməsi və ya başqa bir yerdə olması halları ilə bağlı qərarların verilməsi idi. Belə hallarda tam siyahısı tutulmuş mallar müəyyən müddət qorunub saxlanılır, müəyyən edilmiş vaxt ərzində iddiaçının ortaya çıxmaması halında, həmin malların auksiona çıxarılaraq, satışı təşkili edilirdi.

Miras ilə bağlı məsələlərdə qazının nəzarəti altında şəriət məhkəməsinin katibləri mirasın (*tərəkə*) siyahısını tutur, dövlət qiyməti ilə malların adına və çeşidinə görə sayını və dəyərini, həmçinin, katiblərə çatacaq rüsumların adlarını və məbləğini qeyd edirdilər.

Qanunnaməyə əsasən şəriət məhkəməsi cinayət işlərinə də baxırdı. Fiziki xəsarət məsələsində bədənin hansı üzvünə xəsarət yetirilmişdisə, xəsarət yetirmiş şəxsin bədəninin həmin hissəsinə

---

[26] *Beytülmal* - hərfi mənası "dövlət xəzinəsi" olsa da, Osmanlı dövlətində bu anlayış yalnız miras hüququ ilə bağlı idi. Dövlət büdcəsində *beytülmal* ayrıca maddə kimi gəlir hissəsində qeyd edilirdi. "Xəzinə" anlayışının qarşılığı isə, "*xazineyi-amire*" idi. Kargüzarlıq və maliyyə işlərinə aid olmayan kontekstlərdə isə, *beytülmal* xəzinə sözünün sinonimi kimi işlədilə bilərdi; bunun miras hüququna aidliyi yoxdur .

xəsarət yetirmək qərarı verilirdi. Digər hallarda isə, cinayət törətmiş şəxs maddi vəziyyətindən asılı olaraq, müəyyən edilmiş cəriməni ödəməli olurdu. Pul cəriməsi qərarının çıxarılması da şəriət məhkəməsinin səlahiyyətinə daxil idi: *Qanunnamə* hərbi-inzibati işlərə məsul vəzifəli şəxslərin bu məsələyə müdaxiləsini qadağan etmişdi.

İnzibati məsələlərlə qayda-qanunların icrasına nəzarət şəriət məhkəməsinin ən çox məşğul etdiyi sahələr idi. Əslində bir-biri ilə əlaqəli olan bu sahə üzrə şəriət məhkəməsinin diqqət yetirdiyi məsələlər ticarətlə bağlı vergi və rüsumların, o cümlədən bazar bacının, istehsalat sexlərinin və dükanların vergi və rüsumları, dövlət qiymətinin (*narh*) və s. müəyyənləşdirilməsi, asayişin (*asesiyye*) qorunmasına məsul olanların işlərinə nəzarətlə əlaqəli idi.

Hicri 1005-ci (1596-1597) il tarixli İrəvan qazısına yazılmış hökmdə İrəvan vilayətində qanun pozuntularının olması qazıların nəzərinə çatdırılırdı. İlk nəzəri cəlb edən isə, nahiyələrdə qayda-qanunların icrasına nəzarət edən *naib* vəzifəsinin qazılar tərəfindən iltizama verilməsi idi. Bunun yolverilməz olduğu bildirilən hökmdə eyni zamanda İrəvan vilayətində kənd yerlərində yaşayan insanlara maddi və mənəvi ziyan vuran silahlı dəstələrin peyda olması və onların öhdəsindən gəlmənin vacibliyi də vurğulanırdı.[27]

### İRƏVAN VİLAYƏTİNİN KƏND TƏSƏRRÜFATI

Bu sahə bölgənin iqtisadiyyatının əsasını təşkil edirdi. Onun mühüm istiqamətləri kimi əkinçiliyi və heyvandarlığı qeyd etmək lazımdır.

Osmanlıların İrəvan vilayətində kənd təsərrüfatının təşkili ilə bağlı tətbiq etdikləri qaydalar və onun hüquqi əsasları İrəvan vilayətinin Qanunnaməsində əks olunmuşdur. Qanunnnamənin bütün maddələrinin hərfi mənada tətbiqini söyləmək çətindir.

---

[27] S.Ilgaz, *Osmanlı hakimiyetinde Revan (Çukursaad), (XVI-XVIII yüzyıllar arasında),* s. 181-182.

Həmin qaydaların və onların hüquqi əsaslarının tam şəkildə icra olunmasında osmanlılar tərəfindən istisnaların edilməsi də mümkün idi, çünki osmanlılar üçün mühüm olan Qanunnamənin hərfi mənada tətbiqi deyil, kənd təsərrüfatı işlərinə cəlb olunmuş insanların psixoloji cəhətdən də yeni qaydalara hazır olmaları mühüm əhəmiyyət kəsb edirdi. Qanunnamədə əks edilmiş hüquqi istilahlar səfəvilər dövründə işlədilənlərdən fərqli ad ilə qeyd edilsələr də, məzmununa görə osmanlı terminlərinin mənasından ciddi fərqlənmirdilər. Bu baxımdan işlədilən termindən asılı olmayaraq, səfəvi dövründəki kimi, istər əkinçilik, istərsə də heyvandarlıq sahələrində eyni vergiləri və rəiyyətlər eyni rüsumları ödəmişlər. Fərq əsasən həmin vergi və rüsumların miqdarı və yığılma qaydalarında olmuşdur. İrəvan vilayətində isə, vergi və rüsumlar üç qayda əsasında yığılırdı. Bunlar gəlir mənbəyinin (*müqatiə*) iltizama verilməsi, vergi və rüsumların miqdarının götürə üsul (*maktu*) ilə müəyyənləşdirilib yığılması və *malikanə* idi. Əgər ilk iki vergi toplama üsulu aydın idisə, *malıkanə* səfəvilər dövründə mülk sahibi olmuş şəxslərin mülkündən əldə edilən gəlirin az bir hissəsi mülk sahibinə, gəlirin yerdə qalan və çoxluq təşkil edən hissəsi isə dövlətə (*divani*) qalırdı; bu hissə də layiq olduğu hesab edilən şəxslərə *dirlik* şəklində verilirdi.

İrəvan vilayətində əkinçi bir cüt öküzlə şumlaya biləcəyi əkin sahəsini – *cift* - bir dəfə ödəniləcək rüsumu - *tapu*- verərək, onun ömürlük istifadəçisi olurdu. Bu əkin sahəsi isə, nə satıla, nə də hədiyyə oluna bilərdi, lakin övladları vərəsəliklə istifadə edə bilərdilər. Bununla belə, *çift* heç bir halda iki hissədən artıq yerə bölünə bilməzdi. Əgər ölmüş rəiyyətin ikidən artıq oğlu olardısa, bu halda çift iki hissədən artıq yerə bölünə bilinmədiyi üçün, varislər torpaq sahəsini müştərək istifadə edirdilər. İki yerə bölünmüş *çift* müfəssəl dəftərdə "*yarım çift*" (*nim çift*) adı ilə qeydə alınmışdır.

Çiftlərin sahəsi torpağın əkin üçün yararlığından asılı olaraq 60-150 dönümə (6-15 ha) bərabər olmuşdur.[28] Yarım çiftdən as torpağı olanlar qanunnamələrdə və müfəssəl dəftərdə *bennak*, torpağı olmayan, başqasının torpağını *tapusuz* əkib-becərənlər isə, *caba* adı ilə  qeydə alınırdılar. Torpaq alıb, əkib-becərmək üçün başlıca şərt həmin adamın evli olması idi. Subaylara (*mücərrəd*) torpaq sahəsi ayrılmazdı. İrəvan vilayətində isə onlar subaylıq vergisindən azad idilər.

Müsəlmanların çift üçün ödədikləri vergi qeyri-müsəlmanlardan "*ispəncə*" adı altında alınmış, lakin müsəlmanların ödədikləri miqdardan daha yüksək olmuşdur. Qeyri-müsəlmanlardan kənd təsərrüfatının bütün sahələri ilə bağlı ödədikləri vergilər müfəssəl dəftərdə eyni adla qeyd olunmuşdur.

Torpaq əkib-becərən rəiyyətlərin ödəməli olduğu vergilərdən ən mühümü  *üşr* (1/10) adı ilə qeyd edilən natural vergi idi. Bəzi hallarda 1/5 və hətta 1/8 də olurdu. Müfəssəl dəftərin qeydlərində bir çox hallarda dənli bitkilər üçün 1/5 və hətta 1/8 nisbəti *götürə üsul* ilə müəyyən edilmiş vergi ilə əvəz olunmuşdur.

Müfəssəl dəftərin məlumatları İrəvan vilayətinin nahiyələrinin əksəriyyətində buğda, arpa, darı, noxud, mərcimək, paxla, zəyrək, çəltik kimi dənli bitkilər, bəzi nahiyələrdə isə, pambıq da əkib-becərirdilər. Bu məhsullar üçün vergi natural şəkildə alınırdı. Heç kimin yaşamadığı kəndlərdə və bir vaxtlar məskun kəndlər olub, sonralar tərk edilmiş kəndlərin əkinə yararlı torpaqları (*məzrəə*) da böyük gəlir mənbəyi idi.[29]

Müfəssəl dəftərdə adları qeyd edilmiş dənli və texniki bitkilər çəki vahidləri *kile* (təqribən 25 kq) və *man*  (pambıq

---

[28] Müfəssəl dəftərdə hər hansı bir çiftlik, əkin yeri (*zemin*), yaxud çayırlıqla bağlı məlumat verilərkən, onun sahəsi *dönüm* sözü ilə deyil, neçə *çiftlik, bennaklık* və *öküzlük* olduğu yazılır; həmin yerin məhsuldarlığını bildirmək üçün isə, neçə "*kilelik*" olduğu qeyd edilir.

[29] İrəvan vilayətində tamamilə boş olan nahiyələrin məskun olmayan kəndlərinin və məzrəələrinin torpaqlarının əkilib-becərilməsi üçün lazım olan işçi qüvvələrinin həmin yerlərə necə cəlb edilməsi məlum deyil.

üçün istifadə edilirdi və rəqribən 3 kq-a bərabər idi) ilə qeyd edilmələri ilə yanaşı, onların vergi kimi ödəniləcək həcmi də yazılmışdır. Bu məlumatların əsasında İrəvan vilayətində həmin bitkilərin həm istehsal həcmini, həm də dövlət qiymətini (*narh*) müəyyənləşdirmək mümkündür.

İrəvan vilayəti üzrə dənli bitkilərdən ən çox məhsul əldə ediləni buğda (43.056 t), arpa (32.066 t) və darını (12.030 t) qeyd etmək olar ki, bunların da əsas payı, İrəvan, Şərur və Naxçıvan qəzasına düşürdü. İrəvan vilayətinin 6 nahiyəsində [Şərur, Azadciran, Vadi (Vedi), Karni, Karpi və İrəvan] hesablamalarımıza görə 910 t çəltik yetişdirilmişdir. Kimsəsiz nahiyələri çıxmaqla, nahiyələrin hamısında dənli bitkilərin üyüdülməsi üçün dəyirmanlar, zəyrək yağı almaq üçün bezirxanalar və çəltiyin arınması üçün dinkxanalar işlədilirdi.

Pambıq İrəvan vilayətin 17 nahiyəsində əkilmiş, pambıqçılıq isə, həmin nahiyələrin müsəlman əhalisinin məşğuliyyət sahəsi olmuşdur. Əldə edilən məhsulun həcminə görə Şərur (2.369 t), Karpi (1.225 t) və Azadciran (1.162 t) qəzalarını qeyd etmək olar.

Dənli və texniki bitkilərin dövlət qiymətinə gəldikdə isə, onların içində ən bahalısı pambıq olmuşdur:1 man pambığın qiymətinin 96 ağça (və yaxud 1 kq pambığın qiyməti 32 ağça idi), kile ilə ölçülən dənli bitkilərdən çəltiyin bir kilesi üçün 30 ağça, buğdanın, mərciməyin, noxudun və paxlanın bir kilesi üçün 8 ağça, arpa və darının bir kilesinin qiyməti 6 ağça təyin edilmişdi.

Heyvandarlıqla məşğul olanlar qoyun-keçiləri üçün ödədikləri vergi ilə yanaşı, bu sahə ilə bağlı qışlaq, yataq, axıl, ot[30] vergisi (əslində isə, otlaq vergisi), heyvanlarını yaylaqlara çıxa-

---

[30] S.Ilqazın dissertasiyasında "*resm-i giyah*"ı "*resm-i ketan*" kimi oxunmuşdur (S.İlgaz, göst. dissertasiya, s. 116 və b.) ki, bu yanlışdır. İrəvan vilayətində kətan bir bitki kimi deyil, onun dənələrindən alınan yağın (*zəyrək*) əmtəə dəyəri olduğu üçün vergiləndirilmişdir. Fikrimizcə, kətandan hazırlanan mallar, satış üçün deyil, şəxsi istehlak üçün hazırlandığına görə, ondan vergi alınması lazım bilinməmiş və Müfəssəl dəftərə salınmamışdır.

ranlar isə, həm də yaylaq vergisi ödəyirdilər. Müəyyən bir yaşayış yeri üzrə müfəssəl dəftərdə qeydiyyata düşməyənlərdən də məşğuliyyətindən asılı olaraq alınan vergilər və rüsumlar ümumiləşdirilmiş ad altında- *rüsum-i haricin*- qeyd edilirdi.

Heyvandarlıq sahəsi ilə bağlı məlumatlardan aydın olur ki, bu məşğuliyyət sahəsindən xəzinənin əldə etdiyi gəlir (209.762 ağça) vilayət üzrə gəlirin (13.960.384 ağça) daxilində payı yüksək olmamışdır (1.5%). Bununla belə, statistik rəqəmlər və Qanunnamənin qoyun vergisi (*adet-i ağnam*) üçün müəyyənləşdirdiyi vergi nisbəti (2 qoyun üçün 1 ağça) İrəvan vilayətində 245 min qoyun olduğunu bildirir.

Kənd təsərrüfatı sahələrindən olan üzümçülük, meyvəçilik və arıçılıq üçün də müvafiq vergilər müəyyən edilmişdir; bunlar da İrəvan vilayətinin Qanunnaməsində öz əksini tapmışdır.

Hesablamalarımıza görə, İrəvan vilayətində 3.668 ədəd üzümlük və meyvə bağları olmuş, bunun da yarıdan çoxu Azadciran nahiyəsində (1.009 ədəd, onun da 576 ədədi Ordubadda) və İrəvan nahiyəsində (892 ədəd) qeydə alınmışdır.

Arıçılıqda vergi vahidi kimi arı pətəyinin sayına və ondan əldə edilən məhsulun yüksəkliyinə bağlı olmuşdur. Məhsulu yüksək olan bir arı pətəyi üçün 2 ağça, məhsul göstəricisi aşağı olanlar üçün isə, 1 ağça ödənildi. İrəvan vilayəti üzrə arı pətəyi üçün alınan verginin 35.786 ağça olduğunu nəzərə alsaq, burada arı pətəklərinin sayının minimum 17.893, maksimum isə 35.786 ədəd ola biləcəyi ehtimal edilir.

Beləliklə, xəzinənin İrəvan vilayəti üzrə əldə etdiyi gəlirdə (13.960.384 ağça) dənli və texniki bitkilərdən əldə olunan gəlirin nisbəti (3.362.874 ağça) 24%, heyvandarlıqdan qazanılan gəlirin (209.762 ağça) nisbəti 1.5%, arıçılığın, meyvəçiliyin və üzümlüklərlə meyvə bağlarının təmin etdiyi gəlirin (199.149 ağça) nisbəti isə 1.4% təşkil etmişdir; beləliklə, İrəvan vilayətinin gəlirinin 26.9%-i kənd təsərrüfatının ayrı-ayrı sahələrinin üzərinə düşürdü.

**İRƏVAN VİLAYƏTİNİN MÜFƏSSƏL DƏFTƏRİNDƏ VƏQFLƏR**

Müfəssəl dəftərdə Səfəvilər dövrünə aid və Osmanlılar dövründə gəlir mənbələri kimi yenidən nəzərdən keçirilən, vəqf kimi təsdiqinə, yaxud da vəqf olmuş obyektlərin gəlirinin necə bölüşdürülməsinə dair də qeydlər vardır. Osmanlılar dövründə İrəvan vilayətində yeni vəqflər təsis edilməmişdir.

Ordubad qazısı mövlanə Bali əfəndi onun əkib-becərdiyi çiftlikdən, üzümlükdən, dəyirman və dinklərindən əldə etdiyi gəlirini Naxçıvanda olan şeyx Əminəddin məscidinin xərclərinin qarşılanması, bu məsciddə və Cameyi-kəbirdə hər gün Qurani-Kərimdən 5 cüz oxunması, Cameyi-kəbir nəzdində olan əczaxanaya verilməsi üçün, Azadciran nahiyəsinin Vənənd kəndindəki məscidin imamı üzümlüyünün gəlirini həmin kəndin məscidinə vəqf etmişdir.[31] Şərur qəzasının Zaviyyə kəndində olan iki üzümlükdən və bir əkin yerindən əldə edilən gəlirin Sufi Xəlil camesinə və onun nəzdində fəaliyyət göstərən mədrəsəyə, Vedi nahiyəsinin Böyük Vedi kəndindəki Acısu çiftliyindən əldə edilən gəlirin həmin kənddəki camenin imamının, xətibinin və müəzzininin maaşı üçün vəqf edilmişdir.[32]

Digər iki vəqfin isə gəlirinin ixtisar olunması və ya tamamilə kəsilməsini görürük. Bunlardan biri, Naxçıvan əyanlarından mövlanə Məhəmmədin Naxçıvan qəzasının Cəhri və Qıvraq kəndləri ilə Nürgüt məzrəəsindən əldə edilən gəlirin vəqf üçün ayrılan hissəsi *malikanə* və *divani* hissələrinə bölünərək, vəqf üçün yalnız gəlirin az hissəsi olan *malikanəsi* verilmiş, Əlincə nahiyəsinin Xangah kəndində olan şeyx Əbunnəsr Xorasaninin zaviyyəsi və camesinin gəlir mənbəyinin *malikanə* hissəsi sultan xaslarına qatılmışdır.[33] Müfəssəl dəftərdə qeyd edilməsə də, *divani* hissə də dirliklər kimi sipahilər arasında paylanmış ola bilərdi.

---

[31] *İrəvan vilayətinin müfəssəl dəftəri*, N: 633, ss. 113, 168, 285, 294.

[32] Yenə orada, ss. 172, 216.

[33] Yenə orada, ss. 124, 140, 351.

**İRƏVAN VİLAYƏTİNİN ƏHALİSİ VƏ ETNO-KONFESSİONAL TƏRKİBİ**

Bu mövzuya yanaşma üçün müfəssəl dəftərin məlumatları analoji dəftərlərin məlumatlarına bənzəmir. Əgər digər vilayətlər üçün əhalinin sayı məsələsində müfəssəl dəftərlər bir qayda olaraq dəqiq statistik məlumatlar verirlərsə, İrəvan vilayətinin müfəssəl dəftərində nəzərdən qaçan və ya "*gizli*" və bir az da dolaşıq məlumatları vardır. Bu tip məlumatlardan birincisi, yaşayış yerlərində əhalinin məşğuliyyət sahəsindən asılı olaraq, vergi mükəlləfiyyəti daşıyanların ümumi siyahısında olub-olmaması idi. Vergi mükəlləfiyyəti daşıyanlardan biri və ya şərikli olaraq bir neçəsi yalnız üzümçülüklə məşğul olardısa, yaxud biri, bir neçəsi daşınmaz əmlak, misal üçün, şərikli olaraq dəyirman, bəzirxana və dinkxana işlədərdilərsə, həmin şəxslərin adını osmanlı katibləri ümumi siyahıya salmırdılar: həmin şəxslər üzümlük, dəyirman, bəzirxana və dinkxana sahibi və ya şərikli sahibləri kimi qeydə alınırdılar. Lakin həmin şəxs (və ya şəxslər) eyni zamanda əkinçilklə də məşğul olardısa, bu halda onun adı vergi mükəlləfiyyəti daşıyanların ümumi siyahısında yazılır və vergi mükəlləfiyyəti daşıyanların ümumi siyahısında da qeyd edilirdi. Adları ümumi siyahıda olanlarla yuxarıda qeyd etdiyimiz digər sahələrdə məşğul olanların adlarının tutuşdurulması və eyni və ya fərqli adamların olmasını müəyyən edilməsi yolu ilə hesablamalar apararaq, məşğuliyyət sahəsindən asılı olmayaraq, bütün vergi mükəlləfiyyəti daşıyanların dəqiq sayını müəyyən etmiş olarıq.

Bu qayda ilə aparılan hesablamalarda mütləq şəkildə daşınmaz əmlak sahibi olanlardan həmin mülkdən əldə edilən gəlirin maaş şəklində verilən hərbçilərin, daşınmaz əmlakın olduğu yerdən xeyli uzaqda yaşadığı və ya işlədiyi bildirilən şəxslərin (katiblərin, dəftərdarların, çavuşların və b.), İrəvan vilayətinə tabe olmayanlar da daxil başqa sancaqların (livaların) sancaq bəylərinin, din xadimlərinin (xüsusilə də, başqa qəzaların qazılarının) daşınmaz əmlakın olduğu yerdə yaşayanların siyahısından çıxarılması, daşınmaz əmlakın olduğu yerdə qeydə alınmış dul qadınların hesaba qatılması, lakin onun ailə üzvlərinin sa-

yının qəbul edilmiş beş nəfərdən deyil, dörd nəfərdən hesablanması, miras şəklində daşınmaz əmlak sahibi qızların isə, beş nəfərlik ailənin üzvü olduğunu nəzərə alaraq, hesaba qatılmaması və s. şərtlərə əməl edilməsi vacibdir.

Dolaşıq hesab etdiyimiz ikinci qrup məlumatlar isə, subayların sayı ilə bağlıdır. Müsəlman olan subayların vergilərdən azad olunmalarına baxmayaraq, müsəlmanlar üçün onların adları yazıldıqdan sonra ümumi siyahıda sosial statusu da qeyd edilmiş, xristianların isə, bəzi istisnalarla, subay olanlarının statusu müfəssəl dəftərdə qeyd edilməmişdir. Halbuki əhalinin sayının hesablanmasında sosial statusun əhəmiyyətli rolu vardır.

Bu halda, iki variantdan istifadə oluna bilər. Birincisi, istisna şəklində adlarından sonra subay olduğu qeyd edilən xristianların həmin yaşayış yerinin vergi mükəlləfiyyəti daşıyanlarla nisbəti və alınan nisbətin bütün vilayətə tətbiq edilməsidir. Bu üsulun çatışmayan cəhəti, bu qəbildən olan məlumatların vilayət üzrə xeyli az olması və ümumiləşdirmələr üçün kifayət etməməsidir.

Vilayət üzrə həm müsəlmanların, həm də xristianların eyni sosial-mədəni və iqtisadi mühitin insanları olduğunu və ailə üzvlərinin saylarında və həmçinin yeni ailə qurası subayın yaş həddinin bənzər ola biləcəyini nəzərə alaraq, müsəlman subayların vergi mükəlləfiyyəti daşıyanların içindəki nisbətinin eyni vilayət daxilində yaşayan xristian icmanın ailələrinə də tətbiq oluna biləcəyi subayların müəyyən edilməsinin digər variantı ola bilər.

Yuxarıda qeyd etdiyimiz qayda ilə apardığımız təkrar yoxlamalar nəticəsində İrəvan vilayəti üzrə adları ümumi siyahıya salınmamış daşınmaz əmlak sahiblərinin müsəlmanlardan olduğunu müəyyən etdik. Xristian əhalisində belə hallara rast gəlmədik. İrəvan vilayəti üzrə ümumi siyahıya salınmışlardan 1.328 müsəlmanın adını müəyyən edərək[34], vilayət üzrə 10.840

---

[34] Bəzi daşınmaz əmlakın bir neçə sahibi olduğu təqdirdə katiblər şəriklərin hamısının adını qeyd etmiş, lakin bəzi hallarda "filankəs *və şərikləri*" şəklin-

nəfər vergi mükəlləfiyyəti daşıyanın adının müfəssəl dəftərə daxil edildiyini söyləmək mümkündür.

Subaylara gəldikdə isə, vilayət üzrə adları müfəssəl dəftərə salınmış müsəlmanlardan 533 nəfəri subay olmaqla cəmi 5.181 nəfər qeydiyyata alınmışdır. Evli-subay nisbətinin 11.5% olduğunu müəyyən edərək, xristianlar arasında 651 subayın və 5.008 evlinin olduğunu görərik. Lakin bunlar yuxarıda da qeyd etdiyimiz kimi, adları müfəssəl dəftərə salınmamışlardır. Müfəssəl dəftərdə haqqında bəhs olunan, ancaq sayları barədə heç bir məlumat verilməyən *camaatların* da olduğu buraya əlavə edilməlidir.

Bunun üçün vilayət üzrə qeydiyyata alınmış ailələrin (9.656) və məskun olan yaşayış yerlərinin sayı (236 kənd) əsasında bir yaşayış yerində ortalama 39 ailənin yaşadığını aydınlaşdırmış oluruq. Nəzərə alsaq ki, İrəvan vilayətində Alpaud, Balışlı, Qaşlı, Qələndər, Muğanlı, Saatlı camaatları və həmçinin qışladıqları nahiyələrin adları ilə (Abaran, Şərabxana, Şərur və Vedi nahiyələri) haralarda yayladıqları qeyd olunmuş minimum daha dörd camaatı əlavə etsək, bu camaatların təqribən 390 ailədən (və ya 1.950 nəfər) ibarət olduğu ortaya çıxır.

Əldə etdiyimiz yuxarıdakı statistik məlumatlar əsasında vilayət üzrə əhalinin ümumi sayını və onun etno-konfessional strukturunu da aydınlaşdıra bilərik.

Ümumiləşdirilmiş məlumatlara əsasən İrəvan vilayətində qeydiyyata alınmış 5.038 evli və 533 subay müsəlman ilə 5.008 evli və 651 subay xristian yaşayırdı. Bir ailəni 5 nəfərdən hesablamaqla, vilayət üzrə 51.414 nəfərin yaşadığını və bunların da 50.1%-ni türk-müsəlman əhali, 49.9%-ni isə xristianlar (ermənilər) təşkil edirdi.

---

də izahat verərkən, şəriklərin adlarını yazmamışlar; bu kontekstdəki "*şəriklər*" sözünün arxasında minimum iki nəfərin ola biləcəyini ehtimal edirik; bəzən şəriklərin sayı beş nəfərə çatırdı.

Bununla da, İrəvan vilayətinin əhalisi ilə bağlı araşdırmanı yekunlaşdırmaq olardı. Lakin narrativ mənbələrin məlumatlarını da buraya əlavə etmək lazımdır.

Gelibolulu Mustafa Ali əfəndinin "Nüsrətnamə" və İbrahim Rahimizadənin "Zəfərnamə..." əsərlərinə isnad edən F.M. Kırzıoğlu belə bir maraqlı faktı nəzərə çatdırır: 1579-cu ilin sentyabr ayında Osmanlı ordusu İrəvan vilayətini ələ keçirməzdən əvvəl Abaran nahiyəsində yaşayan və Çobanbəyi kimi tanınan Əli bəyin 3 min evdən ibarət (təqribən 15 min nəfər) ulusunu buralardan köçürüb, Ərzurum əyalətinin Tekman sancağına yerləşdirmişdir. Həmin ilin oktyabr ayında Şərabxana nahiyəsinə girmiş osmanlı ordusu buradan 20 minədək əsir aparmışdır. Bunların hamısının türk-müsəlman olmasını söyləməyə Sultan III Muradın fərmanı əsas verir. Fərmanda "rəayadan olan xaracgüzar erməni tayfasının mallarına və canlarına zərər verilməməsi..." əmr olunurdu. Gelibolulu Mustafa Ali əfəndi "Künh-ül-əxbar", Seyid Loğman "Zübdət-ət-təvarix" adlı əsərlərində 1583-cü ilin avqust ayında osmanlı ordusunun Fərhad paşanın başçılığında İrəvan vilayətinin ərazisinə daxil olduğu zaman İrəvan şəhəri və eyni adlı vilayətin müsəlman (türk) əhalisinin buraları tərk edib, Osmanlı dövlətinin içlərinə, Ağrıdağ ilə onun yaxınlığındakı yaylaqlara çəkildiyini və İrəvan şəhəri ilə kəndlərində isə yalnız ermənilərin qaldığını bildirirlər[35].

Yuxarıda əhali ilə bağlı qeyd edilən statistik məlumatları da əlavə etsək, belə bir mənzərə yaranmış olacaq: 25.723 nəfər türk-müsəlmanların sayına buralardan köçmüş və zorla köçürülmüş 35 min nəfəri də əlavə etsək, İrəvan vilayətində XVI əsrin sonlarında 86.414 nəfərin yaşadığını və bunların da 70.3%-nin (60.723 nəfər) türk-müsəlman olduğunu söyləyə bilərik. Lakin buraya Zəngəzur diyarının ərazisində yaradılmış 4 nahi-

---

[35] M.F.Kırzıoğlu, *Osmanlıların Kavkas ellerini fethi*, s. 327, 346; Fərəh Hüseyn İbrahim Rahimizadənin adını yuxarıda qeyd etdiyimiz əsərində xristianların "qətl edilib və əsir götürülmələrini üləmaların caiz görmədiyini" yazdığına da diqqəti cəlb edir; bax: Ferah Hüseyn, *XVI-XVIII yüzyıllarda İrevan şehrinin tarihinden (Osmanlı kaynaklarına binaen),* s. 694.

yəli Urut sancağının əhalisi qismən qeydə alınmış, əksəriyyətinin isə, öz yurdlarını tərk etmiş əhalisinin yaşadığı 82 kəndinin, həmçinin bu diyarın 13 nahiyəli İsgəndərqalası sancağı əksəriyyəti boşalmış 337 türk-müsəlman kəndinin sakinlərini və bu yerlərdə yaylaq-qışlaq həyatı sürən Cavanşirli, Çərəli, Xalac, Yəvinökər, Xancanlı, İshaqlı, Qovamilalı və Həsənxocalı camaatlarını sakinlərini[36] də əlavə etsək, yuxarıda göstərdiyimiz *70.3%-lik nisbəti İrəvan vilayətində türk-müsəlmanların əhalinin sayındakı payını minimum* kimi qəbul etməyimiz lazım olacaqdır.

İrəvan vilayətinin əhalisi ilə bağlı materialları nəzərdə keçirərkən, İrəvan qalası və şəhəri ilə bağlı faktlara da nəzər salmaq lazımdır. Tədqiqatlarında İrəvanın əhalisi məsələsinə də toxunmuş tarixçilərdən S.Ilqaz ilə H.Babacan müfəssəl dəftərin materiallarının statik xarakterini nəzərə almadan araşdırma aparmış və məhz buna görə də əldə etdikləri nəticələrlə gerçəkliyi göstərə bilməmişlər. S.Ilqaz Fərhad paşanın İrəvan qalasında apardığı təmir-bərpa işlərindən sonra İrəvanın türk-müsəlman və xristian-erməni sakinlərinin qalanın həm daxilində, həm də ətrafında yaşadıqlarını yazır. İstər müfəssəl dəftərin, istərsə də narrativ mənbələrdə İrəvanın fiziki yerləşməsində dəyişikliklərin baş verməsi haqqında məlumat yoxdur. Bundan əlavə, S.Ilqaz İrəvanın bir məhəlləsini (Dərəköy) və bir neçə kəndi də "*varoş*" adı ilə şəhərə aid etmiş, qala ətrafında olan və xristianların – ermənilərin yaşadığı beş məhəlləni də qalaiçi məkana daxil etmişdir.[37]

H.Babacan isə İrəvanın müsəlman əhalisinin yaşadığı hər hansı bir məhəllənin müfəssəl dəftərdə qeyd edilmədiyinə isnad edərək, müsəlmanların burada dağınıq halda və xristian məhəllələrində yaşadıqlarını qeyd edir. Beləliklə də, qala və qalaətrafı məkanları birləşdirmiş olan H.Babacan İrəvanın əhalisinin struk-

---

[36] Musa Urud, göst. kitab, s. 148-160.

[37] S.Ilqaz, göst. dissertasiya, s.56-57.

turunda müsəlmanların payının ....7 % təşkil etdiyi nəticəsinə varır.[38]

Fərhad paşanın uzunluğu 4.000 arşın (bir memari arşın- 73 sm-ə bərabər idi) olan qala divarlarının (təqribən 2.920 m) çevrələdiyi ərazinin 1/3-nin inzibati binalar, bazar, karvansaray, hamam, dükanlar, meydan, xan sarayı və s. üçün ayrıldığını nəzərə alsaq, bizim hesablamalarımıza görə 2.978 nəfər olan İrəvan əhalisinin qalaiçi ərazinin yerdə qalan hissəsinə necə yerləşə biləcəyini təsəvvür etmək çox çətindir. Halbuki, ümumi siyahıda adları qeyd olunan türk-müsəlman əhali (29 nəfər) və qalaətrafı yerlərdə əmlak sahibi olanlar (224 nəfər) İrəvan qalasının içində (*özündə*), xristian-erməni əhali isə, qalanın ətraf yerlərində yaşamışlar.

Beləliklə də, bizim hesablamalarımızın nəticələri və İrəvan əhalisinin yerləşməsi belə olmuşdur: İrəvan qalası sakinlərinin hamısı – 100%-i,1.265 nəfər – türk-müsəlman olmuşdur. Müfəssəl dəftərin tərtibindən 83 il sonra, 1673-cü ildə İrəvanda olmuş Jan Şardenin İrəvanı nəzərdə tutaraq, "...orada ancaq təmizqanlı qızılbaşlar yaşayırlar",[39] yazması, İrəvan qalasında yerləşmənin dəyişmədiyini sübut edir.

Qədim türk-müsəlman şəhərləri olan Naxçıvan və Ordubadla bağlı statistik məlumatları yuxarıda qeyd etdiyimiz qayda ilə hesablasaq, Naxçıvan şəhərində 665 evli və 110 subayın, Ordubad şəhərində isə 309 evli və 8 subayın qeydiyyata salındığı müəyyənləşər. Bundan əlavə Naxçıvanda 126 evli və 16 subay xristianın, Ordubadda isə, 13 evli və 2 subayın qeydiyyatının aparıldığını görürük. Bu xristianların gəlmə olduğunu, bəzilərinin isə, dəftərin tərtibi ərəfəsində gəldiyini katiblərin xüsusi qeydlərindən də görmək mümkündür. Gəlmə xristianların əsasən culhalılar ola biləcəyini müfəssəl dəftərin culhalıların səfəvilər

---

[38] Hasan Babacan, göst. məqalə, s.664.

[39] Jan Şarden. Parisdən İsfahana səyahət. Fransız dilindən tərcümə edəni Vaqif Aslanov. Bakı, 1994, s. 21. Qalaətrafı bölgələrdə olan beş məhəllədə isə 334 nəfəri evli, 43 nəfəri isə subay olan (cəmi 1.713 nəfər) xristian-erməni yaşamışdır.

dövründə vergilərin ağırlığına dözməyib ətraf yerlərə dağıldığı ilə bağlı qeyddən başa düşmək olar.[40]

Beləliklə, bu dövrdə Naxçıvan şəhərində, müfəssəl dəftərə görə, əhalinin ümumi sayı 4.081 nəfər (bunun da 84.1%-i türk-müsəlman əhali təşkil edirdi), Ordubad şəhərində isə 1.620 nəfər (türk-müsəlman əhalisinin payı 95.9%) yaşayırdı.

XVI əsrin sonunda türk-müsəlman diyarı olmuş İrəvan vilayətinin əhalisinin etno-konfessinal strukturunda olmuş yuxarıda göstərdiyimiz yüksək göstərici XVIII əsrin 20-ci illərində də müşahidə edilir. İrəvan əyalətinin 1727-ci il tarixli müfəssəl dəftərinin və 1728-ci il tarixli Naxçıvan sancağının müfəssəl dəftərinin məlumatlarını yuxarıda tətbiq etdiyimiz qayda ilə sistemləşdirərək, XVIII əsrin 20-ci illərində İrəvan vilayətinin əhalisinin etno-konfessional strukturuna da aydınlıq gətirə bildik. [41]

XVIII əsrin 20-ci illərində İrəvan vilayətində 12.052 evli və 1.595 türk-müsəlman və 9.388 evli və 1.428 subay xristianın yaşadığını qeyd edə bilərik. Əhalinin ümumi sayında (110.264 nəfər) türk-müsəlman əhalinin nisbəti 56.1 % (61.896 nəfər) olmuşdur. Xristianların sayı isə, 48.368 nəfər və ya vilayət əhalisinin 43.9%-i. Bunların arasında *qaraçılar* da olmuş və İrəvan şəhəri əhalisinin 14.9%-i təşkil edən həmin *qaraçılar* İrəvanda qala ətrafında yaşamışlar.[42]

---

[40] *İrəvan vilayətinin müfəssəl dəftəri*, N: 633, s. 393.

[41] *Naxçıvan sancağının müfəssəl dəftəri*, giriş və tərcümənin müəllifləri: Ziya Bünyadov və Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı, "Sabah", 1997; *1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri*, transliterisiya, tərcümə, giriş, terminoloji lüğət və göstəricilər Fərəh Hüseynindir, Bakı, "İdeal-Print" MMC, 2021.

[42] Bax: *İrəvan əyalətinin icmal dəftəri*, araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Ziya Bünyadov və Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı, Elm, 1996, s. 18.

Müasir Ermənistan tarixçiləri arasında qəbul olunmuş fikrə əsasən, bu diyarda qaraçılar XI əsrdən başlayaraq yerləşmiş, xristianlığı qəbul etmiş və erməni adları götürmüşlər. Belə olduğu halda, XVI əsrin sonlarında İrəvanda xristianlar arasında *qaraçıların* da ola biləcəyini söyləmək mümkündür. Lakin müfəssəl dəftərdə xristianlar *gebran* kimi və erməni adları ilə qeydə

İrəvan vilayətində türk-müsəlman əhalisinin XIX əsrin əvvəllərində əksəriyyət təşkil etdiyini o dövrün mənbələri də təsdiq edir: qeyd olunan dövrdə bu diyarda müsəlmanların ümumi sayı 80%-ə çatmışdır.[43]

**İRƏVAN VİLAYƏTİNİN TOPONİMLƏRİ VƏ XRİSTİANLARINDA TÜRK MƏNŞƏLİ ŞƏXS ADLARI**

Müfəssəl dəftərin materiallarında bu barədə də dəyərli məlumatlar vardır. Bu yer adlarının – kəndlərin, məzrəə, qışlaq, yaylaq, dizə və məhəllə adlarının əksəriyyəti türk və türk-müsəlman mənşəlidir. Bunu həm müfəssəl dəftərə daxil edilmiş göstəricidən, həm də əlavə kimi verdiyimiz yaylaq, qışlaq, məzrəə adlarından da görmək mümkündür.

Müfəssəl dəftərdə vergi mükəlləfiyyəti daşıyan şəxslərin qeydiyyatı onların adının və atasının adının, peşəsi və vəzifəsi yazılmaqla tamamlanmamış, bir kimsənin qeydiyyatı aparılan yerə başqa yerdən gəldiyinin bildirilməsi üçün *biruni* sözü ilə ifadə olunmuş, əgər bir şəxsin atasının adı bilinmirdisə, misal üçün, səfəvilər dövründə tərtib olunmuş və həmin şəxsin ata adı qeyd edilmədiyi sənədə əsasən qeydiyyat aparılardısa, o halda

---

alındıqlarına görə, *ermənilər* və *qaraçılar* arasında fərqləndirmə aparmaq mümkün olmur.

[43] *İrəvan əyalətinin müfəssəl dəftəri*, tərtibçi: Tofiq Nəcəfli, Bakı,"Çaşıoğlu", 2009, s. 13.

XVI-XVIII əsrlərdə İrəvan vilayəti üçün hazırlanmış müfəssəl dəftərlərin məlumatları əsasında bu diyarın sosial-iqtisadi və demoqrafik vəziyyətinin dinamikasını araşdırmaq baxımından Nazir Əhmədlinin İrəvan şəhəri daxil olmaqla eyni adlı vilayətin İrəvan, Zəngəzur, Dərələyəz və Göyçə mahallarının kameral təsvirlərinin nəşrinin müstəsna əhəmiyyəti vardır. Əminliklə söyləmək olar ki, bu nəşrləri ilə Nazir Əhmədli XIX əsr Azərbaycan tarixinin mənbəşünaslığının möhkəm özülünü qoymuş və bu elmi istiqamətin dayanıqlığını təmin etməkdə əsaslı rol oynamışdır; (bax: *Dərələyəz mahalının kameral təsviri, 1831-ci və 1842-ci illər*, Bakı, "Elm və təhsil", 2017; *Göyçə mahalının kameral təsviri, 1831-ci və 1842-ci illər,* Bakı, "Elm və təhsil", 2017; *İrəvan əyalətinin kameral təsviri (İrəvan şəhəri, Vedibasar və Şərur malaları),* c.1-2, Bakı, "Turxan" NPB, 2018-2019; *Zəngəzur mahalının kameral təsviri*, Bakı, "Elm və təhsil", 2021).

həmin şəxsin adından sonra *nam* sözü yazılırdı ki, bunu tərcümədə "*... adlı birisi*"[44] kimi verdik.

Şəxs adları ilə bağlı müfəssəl dəftərin materialları arasında daha çox nəzəri cəlb edən xristianların adlarının müxtəlifliyidir. Bununla əlaqədar qeyd edə bilərik ki, onlar xristianların dini kitablarında anılan *yəhudi mənşəli* müqəddəslərin adlarının erməni dilinin orfoqrafiyasına uyğunlaşdırılmasından və həmçinin həmin adların *yunan mənşəli* variantından ibarətdir. Eyni zamanda xristianlar *ərəb-müsəlman* və *türk-müsəlman* adlarından da geniş istifadə etmişlər. Lakin daha maraqlı məsələ isə, xristianların *türk mənşəli* şəxs adlarına da üstünlük vermələridir. İrəvan vilayətinin türk-müsəlman əhalisinin uşaqlarına vermədikləri və ya bu dövrdə istifadə etmədikləri adların xristianlar arasında geniş yayıldığının şahidi oluruq. Türk mənşəli adlar (*Adıbəy, Altun, Aydın, Aydoğmuş, Arslan, Ağa, Ağbaba, Ağababa, Ağabəy, Ağası, Atabəy, Bayar, Budaq, Dəmir, Dilək, Dilənçi, Dondar, Durmuş, Gökçə, Gündoğmuş, Gündüz, Xanqulu, Qara, Qaraca, Qaraxan, Qaragöz, Qulu, Qutlubəy, Qutluxan, Qoçu, Polad, Sarıbəy, Sarıxan, Satılmış, Sevindik, Tanrıqulu, Tanrıverdi, Tanrıvermiş, Törəmiş, Ulubəy, Uluğbəy, Uluxan, Yaxşıbəy, Yağmur*) xristian ailələrində həm ata və oğulda (*Polad veled-i Yağmur, Qutluxan veled-i Dilək, Atabəy veled-i Yaxşıbəy, Satılmış veled-i Qutlubəy* və s. kombinasiyalarda), həm də ayrı-ayrılıqda, atanın və ya oğul övladın adında (*Qaraxan veled-i Mirağa* və s.) rast gəlinir.

Antroponimlərlə bağlı tədqiqat apararkən, hər şeydən əvvəl, yuxarıda siyahısını verdiyimiz türk adlarının vaxtilə İrəvan diyarında yerləşmiş və bir qisminin də xristianlığı qəbul etmiş *qıpçaqların tarixinin* kontekstində nəzərdən keçirilməsi bu bölgə ilə bağlı tariximizin yeni üfüqlərinin açılmasına xidmət etmiş olardı. Müfəssəl dəftərin materialları əsasında ermənilərin

---

[44] *Nam* sözünü "*... adlı biri*" kimi də tərcümə oluna biləcəyi halda, bu sözün məlum olan bir şəxsdən getdiyi üçün tərcümədə onun "*... adlı birisi*" formasına üstünlük verdik.

istifadə etdikləri *türk adlarının bölgələr üzrə nomenklaturasının* hazırlanması, *türk adlarının yayılma coğrafiyasını* və dolayısıyla *qədim türklərin* İrəvan diyarındakı yerləşmə bölgələrini müəyyən etməyə kömək göstərmiş olardı.

**MÜFƏSSƏL DƏFTƏRİN NƏŞRİ İLƏ BAĞLI QEYDLƏR**

Mətndə edilmiş ixtisarlara da nəzəri cəlb etmək istərdik. Bu ixtisarlar yalnız xristianların adlarına aiddir. Həmin ixtisarların səbəbi, siyəqət xəttinin xüsusiyyətlərini və həmçinin qeyri-türk mənşəli adların türk dilinin fonetikasında və dolayısıyla orfoqrafiyasında tamam fərqli yazılış və səslənişi ilə əlaqəlidir. Yanlış oxumalara yol açmamaq və mətni sual işarələri ilə çətinləşdirməmək üçün, xristianların yaşayış yerlərinə görə həm onların, həm də sahib olduqları daşınmaz əmlaklarının dəqiq sayını qeyd etməklə kifayətlənməli olduq.

Araşdırma hissəsində və həmçinin *Qanunnamə*də bir çox terminlərin açıqlamasına toxunulduğu üçün, kitaba terminoloji sözlük əlavə edilmədi.

# İRƏVAN VİLAYƏTİNİN MÜFƏSSƏL DƏFTƏRİ

***(TƏRCÜMƏ, QEYDLƏR, ŞƏRHLƏR)***

# [QANUNNAMƏ]

**s. 2.**

Rəhman və Rəhim Allahın adı ilə.

Bir işin əvvəlində və sonunda Ona arxalanıram, Ona güvənirəm. Verdiyi nemətlərə görə sonsuz şükür və təriflər Ona məxsusdur. İnsanları və cinləri yaradan, bütün cahan sakinlərinə ruzi verənin, yer üzünü qılınc və qələmlə nizama salanın uca dərgahına əbədiyyən şükür və təşəkkürlər olsun.

Uca və sonsuz salavatlar, həqiqi mədhlər varlıq dəftərinin birincisi və kainatın Sərvəri olan Məhəmməd Mustafanın üzərinə olsun. Ən fəzilətli və ən kamil salavatlar və salamlar Onun ülvi və təmiz məqamına məxsusdur. Tayı-bərabəri olmayan, nöqsansız şəriəti təbliğ edib, həmçinin Allahın mülklə bağlı hökmlərinin yer aldığı İslam dinini yenə insanların xeyri üçün bəşəriyyətə çatdırıb kainatı nizama saldı. Və Onun uca Əhli-beytinin və səhabələrinin də tərtəmiz ruhlarına salam olsun ki, Onlar İslamın qısa şəkildə buyurulmuş əmrlərini təfsilatı ilə bəyan eylədilər və [bu əmrlərə] diqqətlə əməl edərək, onları insanlığa tamam-kamal çatdırdılar.

Bundan sonra.

Dünya sığınacağının padşahı, səyyarələr təbəqəsinin şahənşahı, şahlar şahı, yer üzündə Allah lütfünün kölgəsi, Allahın elçisinin xəlifəsi, qeysərlərin boynunu qıran, kisraların başın qopardan, zamanın hökmdarı, daima dönməkdə olan cahanın sahibi, qədərin istədiyi şeyi onun qarşısına çıxardığı sultan oğlu sultan Murad xan həzrətlərinin Allah-Təala səltənət xanəsini, əmin-amanlıq və dinclik kölgəsini zamanın dirəkləri və əbədiyyət sütunları üzərində daimi eləsin. Bu kölgənin altında qarşılığının cənnət olduğu döyüşlərdə din düşmənləri tayfasının zərərli və şər varlıqlarını zəfər suyuna batırılmış nizələrlə yer üzündə onları yerlə bir etmək və o tayfaya şümşad, nizə və oxlardan daddırmaq niyyəti ilə saysız əsgərlərlə qiymətli sərkərdələr göndərmiş və Şirvan vilayəti ilə Gürcüstanın bir hissəsini fəth edib, bundan sonra Gürcüstanın qalan hissəsini, İrəvan və

Naxçıvan vilayətini, bəlkə də, bütün Azərbaycan məmləkətini hakimiyyəti və himayəsi altına almaq üçün, Əsaf kimi nüfuzlu böyük vəzirlərdən, Əsaf kimi nurlu şəxsiyyətlərə qütb ulduzu kimi yol göstərən tədbirli insan, bölgələri Əsafın əmrinə müntəzir qılan, zəmanənin İsgəndəri, günəş kimi parlaq siması olan Cəmşidi, Rüstəmin mübariz vəsflərinə sahib olan və comərd yoldaşlarının içərisində ən vüqarlısı, ən qətiyyətlisi, ölkələr fəth edən və zəfərlər çalan Fərhad paşa həzrətləri – Allah onun gördüyü işlərə qiyamətə kimi xeyir,

**s. 3**

bərəkət ehsan eyləsin, onu daima zəfərlərdən zəfərlərə aparıb, uğurlar nəsib edərək, dinsizlərin üzərində müzəffər eyləsin- sərdar təyin edilmişdir. Hədsiz dərəcədə çox olan müzəffər əsgərlərlə gələn Fərhad paşa dərin zəka tələb edən iş üzərində ciddi-cəhdlə çalışıb, bütün gücünü ortaya qoymaqla, padşahın – tacın sahibinin qüvvətli dəstəyi, zəngin təcrübəsi və çox lütf edən Mənnan Allahın (bolluca ehsan edən Allahın) yardımı ilə Gürcüstanın qalan hissəsini, İrəvan vilayətini və Naxçıvanı- " *halbuki, yer üzündə onlar kimisi xəlq edilməmişdi*"[45]- vəsfinə layiq gözəllikdə bölgə və torpaqlar olan (İrəvan və Naxçıvanı) belə fəth etməklə oraları küfrdən və dinsizlikdən təmizləmişdir.

Hal-hazırda qorunan digər (Osmanlı) məmləkətləri kimi fəth olunduqdan sonra adı çəkilən İrəvan vilayətində və Naxçıvanda ədalətli qanunların bərqərar olması, insanların hər iki dünyada səadət qazanması məqsədilə göndərilmiş və başdan ayağa insaflıq olan dinin bayraqdarlığını layiqincə təmsil edilməsi, ədalətin təcəllisi olan padşahın verdiyi qanunun doğru-dürüst şəkildə həyata keçirilməsi, qeyd olunan vilayətlərin bütün kənd və məzrəələri, dənli bitkilər [üçün vergilər], [şəriət] vergiləri (*hukuk*) və lazım olan rüsumlar qeydə alınaraq, həm müfəssəl, həm də icmal dəftərlərin tərtibi üçün adı çəkilən yüksək məqamlı, fələklərin baş əydiyi Fərhad paşa həzrətlərinin şərəfli vəzifəsi olduğuna görə, bu məsələ ilə əlaqədar olan məmurlar

---

[45] *Qurani-Kərim*, Fəcr surəsi, ayə 8.

zümrəsindən mal dəftərdarı və Allahın aciz bəndəsi olan Məhəmmədə, sultan divanının mal katiblərindən olan Allahın qulu Həsənə təqdir olunası işlə bağlı hökm göndərilib, sultan hökmünün məzmununa və qədim qanuna uyğun olaraq doğru-dürüst bir tərzdə müfəssəl, ətraflı məlumat alaraq, bunların doğruluğuna qəti əmin olduqdan sonra uca əmrə tabe olaraq təhrir işlərinə başladılar. Bu barədə verilmiş əmr və qadağaları, qeyd edilən məsləhətləri nəzərdə tutaraq, doğru istiqamət götürülmüş və əllərdə qələm bu [dəftərin] yazılışı hər şeyi bilən və hər şeyin sahibi olan Allahın yardımı ilə tam səmimiyyət və son dərəcə etina içərisində ömür sürmüş padşahın səltənətinin günlərində, haram olan məhərrəm ayının sonlarında və doqquz yüz doxsan doqquzuncu (18-28 noyabr 1590-cı) ildə başa çatdırılmışdır.

**s. 4**

İrəvan vilayətinin yenidən qeydiyyatı aparıldıqda, şəriət qaydalarının icrasının, örfi rüsumlarla bağlı məlum olan qanunların, osmanlı dəftərlərinin müddəalarının, sultan hökmlərinin məxəzlərinin necə əməl olunmasının təfsilatıdır.

Rəaya qəbiləsinin, tacir tayfasının və qorunan məmləkətin insanlarının padşahın ədalət və mərhəmət qanadlarının kölgəsində kölgələnmələri və xoşbəxt yaşamalarının, dövlətin [ömrünün] davamını və məmləkət nizamını təmin etdiyi üçün, [aşağıdakılar] uca əmrin tələbi kimi zikr olunur.

***Çift vergisi fəsli.***

Üzərinə tam *çiftlik* qeyd olunmuş rəiyyətdən 50 ağça, yarım çift (*nim çift*) üçün 25 ağça, [yarım çiftdən] daha az torpaq sahəsindən istifadə edən əkinli *bennakdan* 18 ağça, *caba*[46] kimi qeydə alınan şəxslərdən qədim qanunlara uyğun olaraq 12 ağça vergi alınır.

Əgər sultan dəftərində (*defter-i hakani*) *çift*, *yarım çift* və ya *bennak* kimi qeydə alınan rəiyyətdən biri ölsə və onun bir neçə oğlu qalsa, yer subay oğlunun adına qeyd olunur, evli

---

[46] *Caba* - əkin üçün torpağı olmayan və başqalarının torpağını əkib-becərən rəiyyət.

oğlanları isə, *caba* kimi qeydə alınır, *caba* vergisi ilə yerin vergisi birləşdirələrək, hissələrinə uyğun vergilərini ödəyirlər. [Atalarından qalan] yeri müştərək əkib-becərirlər. *Caba-bennaklık* rəiyyət ata yerindən imtina etməz, çünki həqiqətən də mülk miras qalmış mal kimidir.

Bir rəiyyət ölsə və onun həddi-buluğa çatmamış oğlu və *çiftliyi* qalsa, həddi-buluğa çatmamışın *çiftliyi* ilə bağlı haqqı pozulmamalı, "atanın çiftliyidir", deyə *sipahi*[47] *çift* vergisi tələb etməməlidir. [Həddi-buluğa çatmamış] oğul həddi-buluğa çatana qədər, [*çiftlik*] əmanət yolu ilə başqasına verilə bilər. Yetim qalmış [oğul] böyüyüb əkin-biçin işlərinə qadir olduğu halda, əmanət yolu ilə verdiyi atasından qalma yerini geri qaytarılmasını tələb etsə, yer ona qaytarılmalı və [bu halda] sipahi ondan *tapu rüsumu* [48] ala bilməz.

Əgər bir rəiyyət ölsə və bir neçə oğlu qalsa, hərəsinin öz hissəsi olmaqla atalarından qalma yeri müştərək əkib-becərərkən, oğlanlardan biri vəfat edər və onun da oğlu qalsa, ölənin hissəsi onun oğluna verilir. Ölən qardaşın oğlu yoxdursa, bu halda ölən qardaşın hissəsi onun qardaşının ixtiyarına verilə bilməz. Əgər belə bir hal yaransa, vəfat etmiş qardaşın hissəsi kənar bir şəxsə (*əcnəbi*) verilməyib, əkin sahəsi üçün vergiləri ödəməyi öhdəsinə götürərsə, bu halda yer vəfat edənin qardaşına verilməlidir. Sipahi isə, vəfat edən qardaşın hissəsini [həyatda olan] qardaşa verilməsini səlahiyyətli şəxslərin (*ehl-i hiyere*) iştirakı ilə ədalətli bir qərara bağlamalı, lakin bu həddini bilərək edilməlidir, artıq bir şey alınmamalıdır.

**s.5**

---

[47] *Sipahi* - burada: dirlik (timar və ya zeamət) sahibi.

[48] *Tapu rüsumu* - rəiyyətin torpaqdan istifadə edə bilmək hüququ qazanmaq üçün bir dəfə ödədiyi rüsum. Torpaq əkib-becərmə hüququ qazanmış rəiyyət ona verilmiş torpağı sata və hədiyyə edə bilməzdi. Ölümündən sonra oğlanları tapu rüsumu ödəmədən torpaqdan istifadə edə bilərdilər.

Lakin qardaş [ölən qardaşın hissəsinə] maraq göstərməsə, o dövrdə *timar* [49]sahibi olan şəxs həmin hissəni kənd əhlindən istəyən birisinə verə bilər.

Halbuki, rəiyyətin adına dəftərdə *tam çift* və yaxud *yarım çift* yazılmışdırsa və bu rəiyyətin oğlu və oğlunun oğlu varsa, həmin rəiyyət də vəfat etsə, ondan sonra isə, özü (ölən rəiyyətin oğlu) vəfat etsə və [ölən oğlun] da oğlu qalsa, babasının yeri oğlunun oğlunun adına qeyd oluna bilməz. Qardaşın yerinin qardaşa verilə bilmədiyi kimi. Lakin [nəvə] ədalətli bir qərar ilə *tapu* alarsa, [bu yer] başqa birisinə verilməməlidir.

Kafir tayfasının yerləri də atalarından [oğullarına] keçər və onlar bu yeri müştərək əkib-becərərlər. [Ölən atanın] yetim qalmış oğlanları həddi-buluğa çatıb əkin işlərinə qadir olana qədər, atalarının yeri əmanətə verilir. Eyni şəkildə qardaşın yeri qardaşa və babanın yeri oğlunun oğluna keçə bilər.

Adı çəkilən bu vilayətin kafirləri xəraclarını verdikdən sonra, *çift* vergisinin qarşılığında hər *xəracgüzar*[50] başına 25 ağça *ispəncə* ödəmələri müəyyən edilmişdir. Onu verdikdən sonra, əkin sahələri üçün *çift* vergisi, *yarım çift* vergisi və *dönüm*[51] vergisi ödəməzlər.

Bu vilayətdə yaşayan müsəlmanların bir qisminin mülkiyyət yoluyla istifadə etdikləri üzümlük və bağları üçün *üşr* vergisi qeyd olunubdursa, bu halda onlar *üşr* vergisini, əkin sahəsi üçün vergilərini ödəyir və *salariyyələrini* verirlər.

*Salariyyə* [haqqında]. Onda bir *üşr* alındıqdan sonra, [məhsulun] qırx *kiləsindən*[52] bir *kilə* nisbətində [*salariyyə*] alınır. *Xums* [53] verənlər *salariyyə* vergisini verməzlər.

---

49 *Timar* - müəyyən bir vəzifə və xidmət qarşılığında verilən və illik gəliri 3.000- 19. 999 ağça arasında olan dirlik.

50 *Xəracgüzar* - burada: qeyri-müsəlmanların ödəməli olduğu vergilər üçün mükəlləf olanlar mənasında işlənmişdir

51 *Dönüm* - 919.3 kv. m.-ə bərabər torpaq sahəsi.

52 *Kile* - çəki ölçü vahidi - osmanlıların istifadə etdikləri bir İstanbul kilesi təqribən 25 kq-a bərabər idi.

53 *Xums* - məhsulun 1/5 hissəsi.

Əgər bir torpaq sahəsi qadının istifadəsindədirsə və torpağı istifadəsiz qoymayıb, əkib-becərirsə, torpağı qadının əlindən almaq qanuna ziddir.

*Üşr*[54] vergisi rəiyyətdən o zaman təkrarən alınır ki, o adam öz *sipahisinin timarında* olan yararlı *çiftliyini* tərk edib bir başqa yerdə əkin əksin. Beləsindən iki üşr miqdarında vergi almaq qanuna tam uyğundur. Ancaq *sipahinin* torpağında əkinə yararlı yer olmadıqda və yaxud *sipahinin* torpağında əkinə yararlı yeri tam əkdikdən sonra, gedib başqasının da yerini əksə, *bəhrəsini* həmin torpağın sahibinə verir. Əgər rəiyyət tayfası istifadəsində yeri olduğu halda, yerlərini tərk etsələr, sipahinin onları geri qaytarmaq ixtiyarı vardır. Lakin bir yerdən köçüb bir başqa yerdə məskunlaşmış və orada 10 ildən artıq yaşayan insanları həmin yerdən köçürmək qadağandır.

Başqa bir yerdə (*aher*) qeyd olunmayana qədər rəiyyətin oğlu rəiyyətdir. Əgər başqa bir yerdə qeydiyyata alınmışdırsa, qeydiyyatına uyğun olaraq əməl olunmalıdır.

**s.6**

Başqa yerdən olan rəiyyətin *tapusu* əsasında əkib-becərdiyi yer əlindən alınıb yerli (*dahil*) rəiyyətə verilməsi qadağandır. Kənardan olan rəiyyətlə yerli rəiyyət arasında fərq qoymaq qadağan olunmuşdur.

Dəftərdə qeydiyyatda olan subay müsəlmanlardan heç bir vergi alına bilməz. Subay olan evlənərsə, ondan *caba* vergisi alınır. *Caba* yer sahibi (*ekinlü*) olsa, ondan *əkinli* [*bennak*] vergisi alınar, *caba* vergisi alınmaz.

Adına *çift* qeyd olunmayanlar *çiftə* sahib olsalar, onlardan *çift* vergisi alınar. Bu məsələdə meyar *çiftliyin* sahəsidir. [Rəiyyət] *çiftliyindən* artıq yeri əkib-becərsə, artıq olan sahə üçün vergi ödəyir.

Kənardan gəlmiş rəiyyətin *çiftliyi* varsa, *sipahi* ondan *tam çift* üçün *çift vergisini*, *yarım çifti* olandan *çift vergisinin*

---

[54] *Üşr* - məhsulun 1/10 hissəsi.

*yarısını*, *yarım çiftdən* az yeri olanlardan *əkinli bennak* vergisini alır.

Qeyd edilənlər yerli rəiyyətə aiddir. Kənardan olan rəiyyət *dönüm haqqı* ödəyir.

Əgər əkilən yer çox yaxşı yerdirsə və hər il əkilirsə, 2 *dönümə* 1 *ağça,*[55], əgər zəif yerdisə, 3 *dönümə* 1 *ağça* vergi alınması qədim qanuna uyğundur.

Əkinçilik üçün yüksək məhsuldarlığı (*ala*) olan yerlərin 80 *dönümü,* ortabab yerlərin 100 *dönümü*, zəif keyfiyyətli yerlərin 130 *dönümü* bir *çiftlik* hesab olunur.

Bir *dönüm* orta addımla eninə və uzununa 40 addımlıq yerdi.

*Çift* vergisi isə, mart ayında alınır.

*Sipahi* rəiyyətdən başqa kəndlərdə əkib-becərdiyi məhsulundan xırman haqqı tələb edə bilməz və zərrə qədər malını ala bilməz.

Əgər rəiyyətin əkinə yararlı yeri üç il dalbadal üzrsüz səbəbə görə əkilməzsə, bunun da *timara* ziyanı olduqda, ziyanın qarşısını almaq üçün, həmin yer sahibinin əlindən alınaraq, *tapu* ilə başqa birisinə verilməsi məqbuldur.

Əgər torpaq sahəsi dağlı-kəsəkli yerdədirsə və yaxud ora su çıxmırsa və bunların nəticəsində hər il əkilməmiş qalırsa, bu yerin başqasına verilməsi qadağandır.

Rəiyyətin *çiftinin* [dincəlməsi], davarlarının dinlənməsi və xırman üçün bir neçə *dönüm* yerin boş saxlayıb, otlaq etməsi qadağan deyil.

Qədim zamanlardan bu yana şəhərlinin və kənd əhlinin davarlarının örüşü üçün ayrılmış boş yerlərin əkilməsi və qurudulması qadağandır.

Üzümlük və bağlardan *bəhrə* almaq qanuna və şəriətə tam uyğundur. Ancaq *sipahi* üzümlük və bağlara görə mövsüm vaxtı *bəhrə* almadığı səbəbindən rəiyyətə təzyiq göstərsə, rəiyyətin

---

[55] *Ağça* - 1328-1687-ci illərdə Osmanlı dövlətində dövriyyədə olmuş gümüş pul.

sıxıntı çəkməməsi naminə, *bəhrənin* miqdarı qarşılığında bələd olanların təxmini hesabıyla götürə üsula (*ber veçh-i maktu*) əsaslanan [miqdar] qeyd olundu.

**s. 7**

Rəiyyətin *zəamət*[56] sahiblərinin və *sipahilərin üşr* kimi yığdıqları məhsulları ən yaxın bazara daşımaları, başqa yerdən gəlib burada əkinçiliklə məşğul olanların isə, məhsulların həmin kəndlərdə olan anbarlara daşımaları qanundur.

Xırman vaxtı rəiyyətin taxılından *üşr* vergisi müəyyən edildikdən sonra, *salariyyə* vergisi verməli olanların əldə etdiyi məhsulununun onda biri *sipahi* tərəfindən dərhal, təxirə salınmadan təyin edilməli, məhsulu xırmanda saxladaraq rəiyyətə əziyyət və təzyiq etməməlidir.

Əgər çox məşğul olmanın nəticəsində iş başa çatdırılmamışdırsa, mübahisə və ya məsuliyyətsizlik ucbatından vergi məsələsində 3 gün kecikmə baş verməsinə görə ziyanın dəydiyi müəyyən edilərsə, dəymiş ziyanı aradan qaldırmaq üçün, kəndin *imamı* və *kətxudalarının* iştirakı ilə, məhsul ölçülür və *bəhrəsi* alınır, məhsulun sahibi gələn kimi isə, [məhsulu özünə] təhvil verirlər.

Əgər bir *çiftliyə* üzümlük deyilirsə, ondan əldə edilən gəlirin dörddə biri *timar* sahibinindir.

***Dəyirman vergisi fəsli***

Vilayətlərin (*memalik*) əksəriyyətində dəyirman vergisini xırman vaxtında almaq qanundur. Dəyirman vergisi dəftərdə göstərilmiş miqdarda alınır, artıq alına bilməz. Dəftərdə qeydiyyatda olmayan dəyirmandan işlədiyi hər ay üçün 5 ağça alınmalıdır.

***Qışlaq vergisi fəsli***

Əgər bir adam *sipahinin timarında* qışlasa, həmin adamdam, əgər o evlidirsə, 6 ağça qışlaq vergisi alınsın,

---

[56] *Zəamət* - müəyyən bir vəzifə və xidmət qarşılığında verilən və illik gəliri 20000- 99999 ağça arasında olan dirlik.

subaydırsa və qışlamaq üçün yeri olsa, ondan 3 ağça tüstü vergisi (*resmi-duhan*) alınsın. [*Sipahinin timarında*] qışlayan adam, burada əkinçiliklə də məşğul olsa, əkin yeri üçün vergi (*resmi-zemin*) ödəyir, amma qışlaq vergisi vermir. Əgər qışlaqçı olan kəs, üç ilə qədər qışlaq vergisi verib, üç ildən artıq burada qalsa, ondan *bennak* vergisi alınsın.

**[*Qoyun vergisi*] *fəsli***

Yerlilər üçün qoyun vergisi iki qoyuna bir ağçadır. Qoyunla quzunun birlikdə sayılması qanun olmuşdur. Əgər adı çəkilən (İrəvan) vilayətində olan əşirət və qəbilələr məskun olduqları kəndlərdə əkinçilik və əkib-becərmə ilə məşğul olurlarsa, vergi və *bəhrələrini* torpaq sahibinə verirlər; ödəyəcəkləri *badi-hava*[57] rüsumları, gəlinlik vergisi və qoyun vergisi isə, sultan *xaslarına* [58] aid edilmişdir.

Qoyun vergisinin isə, aprel ayında alınması qərarlaşdırılmışdır.

***Axıl vergisi fəsli***

Əgər [qoyun sürüsü *timar* sahibinin torpağında] qışlağa gətirilmişdirsə, qışlamağa görə, yataq vergisi adı ilə hər sürüdən orta hallı bir qoyun alınması təsbit olunmuş bir qanundur. Ancaq

**s. 8**

İrəvan vilayətində çox alınarmış. Qədim qanuna görə, "*küdə haqqı*" ilə bağlı hər sürüdən ortahallı bir qoyunun alınması yeni dəftərdə qeyd olundu.

**[*Bal üşrü*] *fəsli***

Bal üşrü (*üşri-asel*) vergisinin əvəzində bol məhsul alınan arı pətəyindən iki ağça, ortabab məhsul alınan arı pətəyindən isə, bir ağça vergi alınır. Əgər bir *timar* ərazisində arı pətəyi, qoyun, üzümlük, bağ və dəyirman olmayıb sonradan ortaya çıxsalar, bunların *üşrü* və rüsumları *timar* sahibinindir.

---

[57] *Badi-hava* - "*küləyin gətirdiyi*"- nə vaxt alınacağı məlum olmayan və alınması zərurətə bağlı olan rüsumlar qrupu. İrəvan əyalətinin müfəssəl dəftərində gəlinlik vergisi ilə bir gəlir mənbəyi kimi qeyd olunmuşdur.

[58] *Xass* - gəliri 100 min ağçadan yuxarı olan dirlik, şəxsi mülk və gəlir mənbələri

**[*Gəlinlik vergisi*] fəsli**

Sultan *xaslarında*, *mirmiran*[59] və *mirliva*[60] *xaslarında*, *zeamətlərdə* və digər *sərbəst olan timarlarda* [61]bakirə qızlar üçün 60 ağça, dul qadınlar üçün isə 30 ağça qeydiyyatda olanların zabitləri gəlinlik vergisi (*resmi-arusane*) alır. Digər *tımar* sahiblərinə çatası gəlinlik vergisinin yarısını ağaları alır, digər yarısını isə, əgər *mirmiran* üçün qeyd olunmuşdursa, *mirmirana*, *mirliva* və *zəamət* sahibi üçün qeyd olunanları isə, onların zabitləri alır.

Haradan gəlin köçməsindən asılı olmayaraq, bakirə qızın gəlinlik vergisini qızın atası kimin rəiyyətidirsə, ona verir. Dul qadın kimin torpağında ərə gedirsə, gəlinlik vergisini həmin torpağın ağası alır.

*Yörük*[62] və *yüzdəçilər* (qazançdan hissə alanlar) tayfasının müəyyən yerləri olmadığına görə, bakirə qız və dul qadın üçün [gəlinlik vergisini] ataları eyni miqdarda ödəyir.

*Zeamət* və *timar* sahiblərinin qızlarının gəlinlik vergisi: *sancağa* tabe olanlarınınki *sancaq*[*bəyinə*], sultan *xassına* qeyd olunanların gəlinlik vergisi sultan *xassına* verilir.

**Fəsil**

Adı çəkilən (İrəvan) vilayətində hər kim qaçmış qulu və cariyyəni və ya itmiş heyvanı tapıb, kimin adına qeydiyyatda isə, ondan muştuluq pulunu alaraq, onun zabitinə təhvil verməlidir. [Qaçmış qulu və cariyyəni və ya itmiş heyvanın] sahibi ortaya çıxmazsa, saxlanma müddəti başa çatdıqdan sonra, onlar vilayətin *qazısının* iştirakı ilə satılırlar.

Sahibləri tapılana qədər qulun və cariyyənin saxlanma müddəti üç aydır, dördayaqlıların saxlanma müddəti isə, bir aydır. Digər malların, parça, xalı, kilim və bu qəbildən olan

---

[59]*Mirmiran* - vilayətin bəylərbəyisi

[60] *Mirliva* - vilayətə tabe olan livanın rəhbəri, sancaqbəyisi

[61] Burada gəlinlik vergisini bütövlükdə alabilmək hüququ olan dirlik sahiblərindən gedir. Bunlara *sərbəst olan timarlar* deyilirdi.

[62] *Yörük* - burada yaylaq-qışlaq həyatı sürən topluluqlar nəzərdə tutulur

əşyaları kim tapsa, özündə saxlamayıb, təhvil verməlidir. Əgər özlərində saxlamış olsalar, cərimə olunacaqlar.

***Heyvanlar üçün cərimələr fəsli***

Rəiyyətin atı və yaxud sığırı və ümumiyyətlə dördayaqlı heyvanı birisinin əkininə ziyan vursa, əkin sahibinin çəkdiyi zərəri təzmin etdikdən sonra, heyvan sahibinə beş dəyənək vurulur və ondan hər heyvanına görə beş ağça cərimə alınmalıdır.

**s. 9**

*Sipahilər* rəiyyətlərin hər bir xanəsindən *dəştibani*[63] adı ilə beş ağça tələb etməsini dayandırsınlar və heç bir şey almasınlar.

**[*Müxtəlif qumaşlar və çeşidli mallar*] fəsli**

Müxtəlif qumaşlar və çeşidli mallar satıldıqda hər 100 ağçada 2 ağça alınır. Əgər mal başqa yerə aparılırsa, *at yükündən*[64] 2 ağça, *dəvə yükündən*[65] 4 ağça alınır.

Bal, yağ, tər (*yaş*) və quru meyvələr, basdırma [ət], düyünün hər *nüqisi*[66] (*nügi*) 2 ağça, qapanda çəkildiyi halda isə, *at tayından* [67]1 ağça, *dəvə tayından* 2 ağça alınır. Qapanda çəkilən bütün mallardan bu qayda ilə [rüsum] alınır, bundan artıq bir şey alınmasın.

Əsir satılsa, alandan da 4 ağça, satandan da 4 ağça [rüsum] alınır.

At satılarsa, *atbahası* olaraq satandan da 2 ağça, alandan da 2 ağça [rüsum] alınır. Qatır, camış və qaramal satılarsa, sa-

---

[63] *Dəştibani* - hərfi mənası "*çöl qoruqçusu*"- əkinə ziyan vuran heyvanların sahibindən alınan pul cəriməsi müfəssəl dəftərdə əkin yeri üçün ödənilən *tapu* ilə bir maddə kimi qeyd olunmuşdur.

[64] *At yükü*- təqribən 4-5.5 kile (100-137.5 kq). Heyvanlara yüklənən malın daşınacağı yerə qədər olan məsafənin uzunluğundan asılı olaraq, at, dəvə, qatır və eşşək yükünün minimum və maksimum hədd müəyyən edilmişdir.

[65] *Dəvə yükü*- təqribən 7-10 kile (175-250 kq).

[66] *Nüqi* - 200 dirhəmə və ya 640 qrama bərabər ağırlıq ölçüsü.

[67] Bərələrlə (*kələk*) daşınan *tayın* ağırlığı 5 İstanbul kilesinə və ya təqribən 125 kq-a bərabər idi. Bu ağırlığın at və ya dəvə tayına bərabər olduğunu söyləmək çətindir. Ehtimal edə bilər ki, burada *tay* sözü *yükün* sinonimi kimi işlənmişdir.

tandan da 2 ağça, alandan da 2 ağça [rüsum] alınır. Eşşək satılarsa, satandan da, alandan da 1 ağça [rüsum] alınır.

Qəssabxanada hər camışa görə 4 ağça, qaramala görə isə 2 ağça [rüsum] alınır. Hər iki qoyuna görə 1 ağça [rüsum] alınır.

**Fəsil**

Qazı olan kəslər öz qəzalarında yaşayan kafirlərin batil ayinlərinə görə kəsdikləri nikahlarına və qismət rüsumuna (*res-mi-kısmet*) [müdaxilə etməsinlər], həddi-buluğa çatmamış oğlan və qızların [nikahı üçün] qanuna zidd olaraq *qismət* adı ilə bir şey almasınlar.

Adı çəkilən (İrəvan) vilayətində *qarabaş* adlandırılan bəzi *mürəxxasların* hər birinin tabeçiliyində bir manastır (*vənk*) olduğuna görə, götürə üsul ilə (*ber veçh-i maktu*) üzərlərinə müəyyən miqdarda *mürəxxasə ağçası* adında vergi qeyd olunmuşdur. Dövlətə aid bu vergini ödədikdən sonra, bunun əvəzində *ispəncə*[68] vergisini verməyirlər. Batıl ayinlərinə görə ödənən nikah rüsumuna və *beytülmallarına*[69] əllərində olan şərəfli hökmlərin yüksək buyruğuna uyğun olaraq sahib olurlar. [Bu işdə] onlara bir kimsə mane olmasın.

Bəhsi edilən *mürəxxaslar* manastırlarının torpaqlarında əkib-becərdikləri məhsulun *bəhrələrini* və manastırlarının dəyirman, üzümlük və bağlarının rüsum və *bəhrələrini* verirlər.

**s. 10**

**Fəsil. *Əkin məhsulları üçün bazar bacı***

Şəhərə buğda və arpa gətirilib satılsa, hər *müd* [70]üçün yarım *kile* [*bac*] alınsın. Bu qayda digər dənli bitkilərə də aiddir.

Bazara un gətirilib satılsa və hər *yük* altı *kile* olarsa, satandan hər *yük* üçün iki ağça alınsın. Bir *müd* 20 İstanbul *kilesinə* bərabərdir.

---

[68] *İspəncə* - xristianlar torpaqdan istifadə etdikləri üçün ödədikləri vergi. Torpaqdan istifadə üçün müsəlmanların ödədiklərin verginin adı isə, çift vergisi (*resm-i çift*) idi.

[69] *Beytülmal* – miras ilə bağlı əməliyyatlara aid termin. Bunun haqqında ətraflı şəkildə şəriət məhkəməsinin fəaliyyəti ilə bağlı hissədə toxunulmuşdur.

[70] *Müd* - 20 İstanbul kilesinə və ya təqribən 500 kq-a bərabər idi.

Şəhərdə *möhtəsib*[71] olan kəslər şəhərdən kənarda yerləşən kəndlərə gedib, *ihtisabiyyə*[72] adı ilə bir kimsədən bir şey almamalıdırlar.

**Fəsil**

Adı çəkilən (İrəvan) vilayətində istifadə edilməkdə olan *batman* 12 *nüqi*dir. Bir nüqi isə, 200 dirhəmdir.

